# QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 102 (6302) 11 iyun 2021-ci il **Qiyməti 40 qəpik** "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Əlaqələndirmə Qərargahının növbəti iclası keçirilib



İşğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 2020-ci ilin 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahının növbəti iclası keçirilib...

*Bax 3*

## Çağdaş dünya üçün örnək qardaşlıq münasibətləri:

# Azərbaycan -Türkiyə!

İlham Əliyev: "Biz də bu qədər möhtəşəm dostumuz olduğu üçün qürurlu və şadıq"



*Bax 2*

## Şuşada üç tarixi məscid bərpa edilir



*Bax 7*

Heydər Əliyev Fondu Şuşada Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı məscidlərinin bərpa-təmir işlərini...

## "Wabash Plain Dealer": İki jurnalistin həlak olmasına görə məsuliyyət Ermənistanın üzərinə düşür

Amerikada çıxan "Wabash Plain Dealer" qəzetində "İki jurnalistin həlak olmasına görə məsuliyyət Ermənistanın üzərinə düşür" sərlövhəli məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, həmin məqalədə ermənilərin...




*Bax 3*

## Kəlbəcər yaylaqlarına köç başladı!



## Laçın dəhlizi ilə bağlı yeni xəbər var - ermənilərin yeganə çıxış yolu bağlanır



## Roman Naudinış: Ağdamda gördüklərimiz vəhşilikdir



## Müdafiə Nazirliyi: "Ermənistan silahlı qüvvələri Kəlbəcər istiqamətində bölmələrimizə atəş açıb"



*Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin Kəlbəcər istiqamətində bölmələrimizə atəş açması ilə bağlı məlumat yayıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən...*

*Bax 13*

## Sorosun etirafları: "ŞQİ" adlı quruma dəstək göstərən kimlərdir?



*Bax 5*

## Pakistanlı ekspert: "Ermənistan dövlət səviyyəsində terrorçuluq və təxribatla məşğul olmağı dayandırmır"



*Bax 6*

## Şəhər mədəniyyəti və mədəniyyətsizlik



*Bax 8*

# Çağdaş dünya üçün örnək qardaşlıq münasibətləri: **Azərbaycan -Türkiyə!**

TƏHLİL



*İlham Əliyev: "Biz də bu qədər möhtəşəm dostumuz olduğu üçün qürurlu və şadıq"*

**"Azərbaycan işğal edilmiş Dağlıq Qarabağda hərbi əməliyyatlarını davam etdirdiyi vaxt beynəlxalq media bir tərəfdən informasiya manipulyasiyası etməyə, digər yandan da Türkiyəni günahlandırmağa çalışır. Bunlardan biri də ABŞ-ın "Fox News" kanalı oldu. Prezident İlham Əliyevdən müsahibə alan "Fox News" Türkiyəni günahlandırmağa cəhd etdi, amma Azərbaycan prezidenti buna imkan vermədi". "Haber 7" saytı yazır ki, 30 illik işğaldan sonra öz torpaqlarını azad etməyə başlayan Azərbaycan beynəlxalq media qurumlarının hədəfindədir. Bununla belə, sayt dünya miqyasında Azərbaycana verilən dəstəyin getdikcə artdığına, dünya mediasının Azərbaycanın haqq səsini eşitdirmək üçün Bakıya mikrofon uzatmağa başladığına diqqət çəkib.**

"Haber 7" Azərbaycan Prezidenti İlham Əliyevin "Fox News"-a müsahibəsini "Möhtəşəm dostluğumuz üçün qürur duyuruq" başlığı ilə manşetdə yer verib. Azərbaycan liderinə Türkiyəni haqsız suçlamalar qarşısında müdafiə etdiyinə görə təşəkkür edilib.

Türk saytı Prezident İlham Əliyevin amerikalı jurnalistin təxribatçı suallarına peşəkarlıqla cavab verdiyini bildirib: "Azərbaycanın haqlı mübarizəsini bir daha dünyaya eşitdirən Əliyev müxbirin təxribatçı suallarına verdiyi cavablarla gündəmə gəlib. Bölgədə aparılan əməliyyatlar ətrafında informasiya çirkabı yaratmağa çalışan "Fox News"un müxbiri Türkiyəni Azərbaycanla birgə əməliyyatlarda iştirak etməkdə ittiham etdi. Anti-Türkiyə fikirlərə keçid etməyə qoymayan Azərbaycan Prezidenti İlham Əliyev Amerika kanalına siyasət dərsi verdi. Azərbaycan lideri Türkiyənin Dağlıq Qarabağda problem yaratdığını deyən "Fox News" müxbirinin iddiasını kəskin şəkildə rədd etdi: "Türkiyə bizə siyasi dəstək verir, onlar bizim dostumuz və müttəfiqimizdir. Biz də bu qədər möhtəşəm dostumuz olduğu üçün qürurlu və şadıq".

Türkiyənin beynəlxalq arenada önəmli siyasi güc olduğunu bildirən Prezident İlham Əliyev müxbirin "Türkiyə sizi savaşa təhrik edir" ittihamına belə cavab verib: "Xeyr, əsla! Türkiyə bizə siyasi dəstək verir və bu, hər şeydən önəmlidir. Türkiyə "Biz Azərbaycanın yanındayıq" deyəndə, bu, hər kəsə açıq mesaj olaraq çatır".

Bir sözlə, "Haber 7" qeyd edir ki, Azərbaycan Prezidenti İlham Əliyevin amerikalı müxbirin bütün təxribatçı sözlərinə şillə kimi verdiyi cavablar, iki qardaş ölkə arasında qırılmaz bağların olduğunu bir daha dünyanın diqqətinə çatdırdı.

## Tarixi köklərə bağlanan qardaşlıq birliyi

Bəli, dünyada analoqu olmayan qardaşlığın, Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" tezisinə əsaslanan reallığın təcəssümüdür. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya səfərləri çərçivəsində səsləndirilən fikirlər və imzalanan çox sayda sənədlər bir daha dünyaya nümayiş etdirir ki, Azərbaycan-Türkiyə qardaşlığı sarsılmazdır və böyük geosiyasi və geoiqtisadi potensiala malik bu iki ölkənin strateji əməkdaşlığı regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə, habelə bölgədə iqtisadi inkişafın daha da gücləndirilməsinə yönəlmişdir.

Sözsüz ki, bu danılmaz faktordur ki, Azərbaycan ilə Türkiyə arasında əlaqələrin böyük tarixi var. Ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələr. Ən əsas amil isə ən çətin anlarda bir-birinin yanında olmaq. Qeyd edək ki, Türkiyə və Azərbaycan öz tarixlərinin ən mürəkkəb dövrlərində bir-birinə dəstək olduqlarını nümayiş etdirmişlər. Belə ki, 1918-ci ildə Nuru Paşanın komandanlığı ilə Türk Qafqaz İslam Ordusunun uzun mübarizələr və müharibələr nəticəsində Bakını xilas etməsi Azərbaycan üçün önəmli dönüş nöqtəsi idi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dediyi kimi: "Türk ordusunun Azərbaycana, Bakıya gəlməsi, Azərbaycanı daşnakların təcavüzündən xilas etməsi hər bir azərbaycanlının qəlbində yaşayır. Azərbaycan xalqı həmin ağır dövrdə türk xalqının ona göstərdiyi köməyi heç vaxt unutmayacaqdır". Anadoluda Qazi Mustafa Kamal Atatürkün önderliyi ilə aparılan milli mücadiləyə azərbaycanlılar maddi və mənəvi yardım göstərmişlər.

Bu gün isə Ermənistanın təcavüzkar siyasətinə qarşı mübarizəsində Türkiyə qardaş dövlətin Azərbaycanla həm cəbhədə, həm də diplomatik səviyyədə mübarizədə yanında olması bu qardaşlığın daha möhkəm olduğunun göstəricisidir.

## Qələbə Zəfərində - İki qardaş birliyi - İlham Əliyev-Rəcəb Tayyib Ərdoğan

Bəli, hər zaman olduğu kimi, Türkiyə Azərbaycanın Qələbə Zəfərində də "Bir millət, iki dövlət", iki qardaş liderlər qələbə münasibətilə bir-birini təbrik etdi. Noyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı zamanı dövlət başçıları Qarabağ müharibəsində Azərbaycanın qazandığı parlaq qələbə münasibətilə bir-birini təbrik etdilər. Prezident İlham Əliyev müharibə dövründə Türkiyə Prezidenti və Türkiyə xalqının Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstəyə görə bir daha minnətdarlığını bildirdi.

Və tariximizə zəfər müjdəli 44 günlük Vətən müharibəsi kimi düşmüş "Dəmir yumruq" əməliyyatı zamanı - işğal olunmuş Azərbaycan torpaqlarının erməni qəsbkarlarından azad edilməsi zamanı Türkiyə dövlətinin və onun Prezidentinin Azərbaycana göstərdiyi mənəvi və diplomatik dəstək sözün həqiqi mənasında təmənnasız qardaşlığın təzahürü idi. Vətən müharibəsi dövründə Türkiyənin bütün dövlət strukturları Azərbaycanın qələbəsi üçün böyük əzmkarlıq göstərdilər. Heç bir beynəlxalq təzyiqlər Türkiyəni qardaşlıq dəstəyi mövqeyindən geri çəkə bilmədi. Bu, "Azərbaycanın kədəri - kədərimiz, sevinci - sevincimiz" - deyən böyük Mustafa Kamal Atatürkün sözlərinin sübutu, böyük türk qardaşlığının təntənəsi idi.

## Prezident İlham Əliyev: "Ərdoğanın qətiyyətli bəyanatları dünyaya göstərdi ki, Azərbaycan tək deyil"

"Siz Azərbaycanda dəfələrlə olmusunuz. Amma bu səfərin xüsusi önəmi var. Azərbaycan üçün o qədər də asan olmayan bir dönəmdə sizin gəlməyiniz əlbəttə ki, xüsusi önəm daşıyır. Bu, qardaş ölkənin açıq dəstəyinin təzahürüdür. Bu dəstəyə görə Azərbaycan xalqı qardaş Türk xalqına və onun Prezidentinə dərin minnətdarlıq hissi ilə yaşayır".

Prezident İlham Əliyev çıxışlarında bu fikirləri dəfələrlə vurğulayıb və bildirib ki, "mənim əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan ilə bu günlərdə təmaslarım, onun çox açıq, qətiyyətli bəyanatları bütün dünyaya göstərdi ki, Azərbaycan tək deyil. Azərbaycanın yanında Türkiyə kimi dünya miqyasında böyük bir güc olan dövlət var, qardaş ölkə var. Bu dəstək bizi ruhlandırır, bizə əlavə güc verir və eyni zamanda, bölgədə sabitliyin, əmin-amanlığın təmin edilməsi üçün önəmli rol oynayır". Bütün bunlar bir daha Türkiyə-Azərbaycan birliyinin göstəricisidir. Dövlət başçımızın dediyi kimi: "Türkiyə-Azərbaycan birliyi bütün dünya üçün örnək olmalıdır. Bu gün biz real həyatda bunu göstəririk, sübut edirik və bu birliyin gələcəyi, hesab edirəm ki, bölgədə dayanıqlı sülhün təmin edilməsi üçün əsas şərt olacaq".

Sevindirici haldır ki, tarixən, bu iki dövlət arasındakı münasibətlərə heç bir qüvvə mane ola bilmədi, əksinə, öndərlərimiz Heydər Əliyevin "Bir millət-iki dövlət" və Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci-sevincimiz, kədəri-kədərimizdir" tarixi hökmlərinin həqiqətdən qaynaqlandığını dünyaya nümayiş etdirdi. Azərbaycan və Türkiyə arasında əlaqələrin belə ali səviyyədə inkişafı təkcə bu dövlətlərin yox, həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. Həmçinin, dostluq və qardaşlıq münasibətləri ölkələrimiz arasında digər sahələrdə olduğu kimi, ölkələrin hakim partiyaları - YAP-AKP münasibətlərində də nümunəvi məcrada dinamik şəkildə inkişaf edir. 2021-ci il 1-3 iyun tarixlərində YAP-ın nümayəndə heyəti Türkiyənin Ədalət və İnkişaf Partiyasının (AKP) dəvəti ilə Ankara şəhərində səfəri, səfər çərçivəsində milli ideologiyaların inkişafı, birgə sosial layihələrin işlənib hazırlanması perspektivləri, QHT və media qurumları ilə əməkdaşlıq, Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası arasında əməkdaşlığa dair niyyət protokolundan irəli gələn vəzifələrlə bağlı səmərəli fikir mübadiləsinin aparılması və ümumi razılıq əldə edilməsi iki ölkənin siyasi arenada müxtəlif istiqamətlərdə daha da yaxınlaşmasından müjdə verir.

## "Güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır"

Bəli, bu gün Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanda səfərdə olarkən dediyi kimi: "Hər ötən gün siyasi, hərbi, iqtisadi, mədəni, ticari - bütün sahələrdə bu əlaqə artaraq davam etməkdədir. Bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır. Dünya birliyində də, şübhəsiz ki, bu iki ölkənin yeri çox önəmli olmaqdadır və olacaqdır".

Bəli, bu gün Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı sadəcə olaraq, kəlam deyil, bu, gerçəkdir. Artıq bu reallıq bütün sahələrdə sübuta yetirilməkdədir. Hər zaman da bu belə olacaq. Qələbə Zəfəri ilə - Qarabağ Azərbaycandır! Azərbaycan-Türkiyə "Bir millət, iki dövlətdir!".

Xalq şairi Bəxtiyar Vahabzadənin bu qardaşlıq birliyini ifadə etdiyi şeirində olduğu kimi:

*Bir ananın iki oğlu,*
*Bir amalın iki qolu.*
*O da ulu, bu da ulu, -*
*Azərbaycan - Türkiyə.*

Bu gün dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə bağlı olan, bir-birinə bu qədər yaxın münasibətlərdə olan ölkələrə rast gəlmək mümkün deyil. Tarixin çətin sınaqları ilə üz-üzə qaldıqda, ən çətin anlarında belə bu iki ölkə arasındakı qardaşlıq sözdə deyil, əməldə özünü göstərir. Bir sözlə, Azərbaycan-Türkiyə münasibətləri bütün dünya üçün əsl örnəkdir.

***RƏFİQƏ KAMALQIZI***

# Əlaqələndirmə Qərargahının növbəti iclası keçirilib






**İşğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 2020-ci ilin 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahının növbəti iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, Prezident Administrasiyasının və Qərargahın rəhbəri Samir Nuriyev iclası açaraq Azərbaycan Respublikası Prezidentinin ötən ay ərzində Şuşa və Ağdama səfərlərini qeyd edib, bu səfərlər zamanı dövlətimizin başçısının aparılan bərpa və yenidənqurma işlərinə yerində baxış keçirdiyi, bir sıra təməlqoyma mərasimlərində iştirak etdiyini və zəruri tapşırıqlar verdiyini vurğulayıb. Samir Nuriyev dövlətimizin başçısının verdiyi konkret göstərişlərin və qarşıya qoyduğu vəzifələrin Qərargahın gündəlik fəaliyyətində rəhbər tutulduğunu diqqətə çatdırıb.

İclasda işğaldan azad edilmiş ərazilərdə əsas prioritetlərdən biri olan minalardan təmizləmə, şəhərsalma və nəqliyyat-rabitə infrastrukturu layihələrinin icrasının vəziyyəti, su ehtiyatlarının idarə olunması və səmərəli istifadəsi, tarixi-mədəniyyət abidələrinin inventarlaşdırılması və bu abidələrin qorunması sahəsində həyata keçirilən tədbirlər, şəhidlərin ailə üzvlərinin, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin, yaralıların, müharibə veteranları və iştirakçılarının sosial təminatı məsələlərinə dair məruzələr dinlənilib və zəruri tapşırıqlar verilib.

Azərbaycan Respublikasının Prezidentinin azad edilmiş torpaqlarda bərpa və yenidənqurma işlərinin ən yüksək standartlara uyğun həyata keçirilməsi ilə bağlı tapşırığının icrası üçün bütün resursların səfərbər edilərək səmərəli istifadəsinin Qərargahın əsas hədəfi olduğu qeyd edilib.

# Macar jurnalist azərbaycanlı həmkarlarının minaya düşərək həlak olmasına görə təəssüfləndiyini bildirib

**Məşhur macar jurnalisti və publisist Peter Erdeyi Azərbaycanın Kəlbəcər rayonunda iki azərbaycanlı jurnalistin və yerli icra hakimiyyəti nümayəndəsinin minaya düşərək faciəvi şəkildə həlak olması xəbərinə görə sarsıldığını bildirib.**

AZƏRTAC-ın respondenti agentliyin xüsusi müxbiri ilə söhbətində qeyd edib ki, hər bir jurnalist onun həmkarlarının öz xidməti borcunu yerinə yetirərkən həlak olmasını özünün şəxsi kədəri kimi qəbul edir. O deyib: "Jurnalistlər hansı qitədə, hansı ölkədə fəaliyyət göstərməsindən asılı olmayaraq, həmişə təhlükəsiz şəraitdə işləmək imkanına malik olmalıdır".



Peter Erdeyi Sirac Abışovun, Məhərrəm İbrahimovun və Arif Əliyevin doğmalarına və yaxınlarına başsağlığı verib, onlara səbir diləyib.

Dəfələrlə Avrasiyanın müxtəlif guşələrindəki qaynar nöqtələrdə olmuş P.Erdeyi işğaldan azad edilmiş Qarabağ rayonlarına da səfər etməyi planlaşdırır. Macar həmkarımız deyib: "Mən bizim peşə nümayəndələrini gözləyən təhlükəni həmişə hiss edirəm və üzərimizə düşən böyük məsuliyyəti xüsusi vurğulamaq istəyirəm. Çox vaxt biz həqiqəti dünyaya çatdırmaq üçün həyatımız riskə məruz qoyuruq. Bu isə bəşəriyyətin həqiqət naminə verməyə hazır olduğu ən böyük dəyərdir".

Xatırladaq ki, iyunun 4-də içərisində Azərbaycanın işğaldan azad edilən Kəlbəcər rayonuna ezam olunan jurnalistlərin olduğu avtomobilin Susuzluq kəndi ərazisində tank əleyhinə minaya düşməsi nəticəsində 3 nəfər - AzTV-nin operatoru Sirac Abışov, Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) müxbiri Məhərrəm İbrahimov, Kəlbəcər rayon icra hakimiyyətinin Susuzluq kənd inzibati-ərazi dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyev həlak olub, müxtəlif dərəcəli bədən xəsarətləri alan daha dörd nəfər xəstəxanaya yerləşdirilib.

# Sergey Mironov: "Qarabağda müharibə başa çatıb, lakin onun əks-sədası regionda hələ də eşidilir"



Qarabağda müharibənin başa çatmasından təxminən yeddi ay keçib, lakin təəssüf ki, bu müharibənin əks-sədası regionda hələ də eşidilir. Bunlar gəlişigözəl sözlər deyil, son 30 ildə postsovet məkanında ən qanlı münaqişələrdən birinin kədərli izləridir.

AZƏRTAC xəbər verir ki, Rusiya Dövlət Dumasında "Ədalətli Rusiya" fraksiyasının rəhbəri Sergey Mironov bu fikirləri "Moskva-Baku" portalına müsahibəsində söyləyib.

Deputat deyib: "Əlbəttə, mən, ilk növbədə, çoxsaylı minaları və partlamamış döyüş sursatlarını nəzərdə tuturam. Onların ucbatından həm hərbçilərin, həm dinc sakinlərin, həm də Rusiya sülhməramlılarının həlak olması davam edir. Döyüş əməliyyatlarının lap əvvəlində mən, xüsusən Azərbaycan və Ermənistan ilə Rusiya arasında çoxdan mövcud olan xüsusi münasibətləri nəzərə alaraq, Qarabağa Rusiya sülhməramlı kontingentinin yeridilməsini təklif etmişdim, çünki regionda sülhə və təhlükəsizliyə yalnız bu yolla təminat vermək olardı".

S.Mironov xatırladıb ki, Rusiya ərazilərin minalardan təmizlənməsi sahəsində çox böyük və uğurlu təcrübəyə malikdir. Fraksiya rəhbəri deyib: "Rusiya sülhməramlıları indi həmin təcrübəni münaqişə zonasında, yuxarıda dediyim kimi, çox vaxt həyatları üçün riskə gedərək tətbiq edirlər. Bununla əlaqədar mən Qarabağda humanitar vəziyyətin çox tezliklə normallaşması barədə çağırışları tamamilə dəstəkləyirəm.

Əlbəttə, ərazilərin minalardan təmizlənməsi bu prosesin mühüm tərkib hissəsi olmalıdır. Bu, regionda tamdəyərli dinc həyatı nizamlamağa imkan verəcək. Müharibənin nəticələrini mümkün qədər tezliklə aradan qaldırmaq üçün bu prosesə qoşulmuş bütün tərəflər əllərindən gələni etməlidirlər". Deputat vurğulayıb ki, Rusiya həm Qarabağda, həm də bütün Qafqazda möhkəm sülhün bərqərar olmasında maraqlıdır.

# "Wabash Plain Dealer": İki jurnalistin həlak olmasına görə məsuliyyət Ermənistanın üzərinə düşür

Amerikada çıxan "Wabash Plain Dealer" qəzetində "İki jurnalistin həlak olmasına görə məsuliyyət Ermənistanın üzərinə düşür" sərlövhəli məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, həmin məqalədə ermənilərin törətdiyi təxribatlardan, Azərbaycan ərazilərinin minalanması, Kəlbəcər rayonunda iki azərbaycanlı jurnalistin və yerli hakimiyyət orqanı nümayəndəsinin minaya düşərək həlak olmasından bəhs edilir.

Məqalədə qeyd edilir ki, iyunun 4-də Azərbaycanın 1993-2020-ci illərdə erməni işğalı altında olmuş və bu yaxınlarda işğaldan azad edilmiş Kəlbəcər rayonunda mina partlaması nəticəsində iki azərbaycanlı jurnalist - Sirac Abışov və Məhərrəm İbrahimov, həmçinin Kəlbəcər rayonunun yerli hakimiyyət orqanının nümayəndəsi Arif Əliyev həlak olub.


72°
Wabash Plain Dealer
Search...
NEWS SPORTS OBITUARIES OPINION MULTIMEDIA CLASSIFIEDS JOBS
BREAKING NEWS Commissioners transfer clerk's microfilm ownership to the state
Jun 8, 2021
PREV
NEXT
Armenia responsible for the deaths of two journalists
rburgess Jun 7, 2021
On Friday, June 4, two Azerbaijani journalists, Siraj Abishov and Maharram Ibrahimov, and a municipal government official, Arif Aliyev were killed in an Armenian-placed landmine blast in the recently liberated Kalbajar district of Azerbaijan, which was illegally occupied by Armenia from 1993 to 2020.
Furthermore, it is important to note that upon the withdrawal of the Armenian army from the occupied Kelbajar district in November 2020 in accordance with the provisions of the ceasefire agreement signed on Nov. 9, 2020, Armenia systematically destroyed civilian infrastructure by burning houses, cutting trees, knocking down power lines, killing livestock they could not take with them and planting landmines
SPECIAL SECTIONS
HomeImprovements2021
Apr 6, 2021

Bildirilir ki, 2020-ci il noyabrın 9-da imzalanmış atəşkəs haqqında Üçtərəfli Bəyanatın müddəalarına uyğun olaraq Ermənistan ordusu Kəlbəcər rayonundan çıxarılandan sonra Ermənistan Azərbaycanın hərbi qulluqçularına və 30 ilə yaxın işğaldan sonra öz evlərinə qayıdan dinc sakinlərə mümkün qədər çox ziyan vurmaq üçün sistematik olaraq bu rayonun mülki infrastrukturunu məhv edib, evləri yandırıb, ağacları kəsib, elektrik xətlərini qırıb, ev heyvanlarını tələf edib, rayon ərazisini minalayıb.

Məqalə ABŞ Azərbaycanlılar Şəbəkəsi tərəfindən keçirilən Amerika ictimaiyyətinin məlumatlandırılması üzrə növbəti kampaniya çərçivəsində dərc edilib.

## Adil Əliyev: "Azərbaycan-Türkiyə arasındakı qardaşlıq nümunəsinin bənzəri yoxdur"

Dünya dövlətləri arasında münasibətlər yalnız maraqlar üzərində formalaşmasına baxmayaraq, Yer üzündə yalnız iki ölkə var ki, onların əlaqələri dostluq, qardaşlıq prinsiplərinə əsaslanır. Dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın olan ikinci dostluq modelinə indiyədək rast gəlinməyib. İstər Azərbaycan, istərsə də qardaş Türkiyə dövlətinin rəhbərlərinin bir-birinə xoş, dostluq münasibətləri ölkələrimizə də sirayət edib və bu əlaqələr daha da möhkəmlənib. Bu gün Azərbaycan və Türkiyə arasındakı tərəfdaşlıq təbii ki, dünyanın bir çox ölkələri tərəfindən böyük qısqanclıqla qarşılanır. Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclis sədrinin müavini Adil Əliyev söyləyib.



Ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamını rəhbər tutaraq birləşən iki dövlətin tarixin bütün çətin sınaqlarından üzüağ çıxaraq dostluqlarını daha da möhkəmləndirdiklərini bildirən Adil Əliyev deyib: "Prezident, Müzəffər Ali Baş Komandanın rəhbərlik etdiyi rəşadətli Ordumuz tərəfindən aparılan şanlı Vətən müharibəsində qardaş Türkiyənin və onun Prezidenti Rəcəb Tayyib Ərdoğanın istər diplomatik, istərsə də mənəvi dəstək xalqımız tərəfindən hər zaman yüksək qiymətləndiriləcək. Ölkəmizin haqlı mövqeyində bizə göstərdiyi mənəvi və siyasi dəstək alqışa layiqdir. Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə qardaş Türkiyənin bütün aidiyyəti qurumlarının Vətən müharibəsində ölkəmizə göstərdiyi dəstək təbii olaraq bir çox ölkələr tərəfindən qısqanclıqla qarşılandı, qardaş ölkəyə qarşı haqsız təzyiqlər artdı. Müharibədə qazandığımız tarixi Qələbəyə bizim qədər sevinən yenə türk qardaşlarımız oldu".

A.Əliyev bildirib ki, postmüharibə dövründə də ölkələrimiz arasında münasibətlər yüksələn xətlə inkişaf edir. Ölkələrimiz arasında təbii qazın istehsalı, satışı, daşınması sahələrində münasibətlər artıq tənzimlənib. Eyni zamanda, bu, yalnız iki ölkə arasında yeni sazişin imzalanması deyildi, habelə regionda və böyük coğrafi məkanda enerji siyasətinin əsaslarını təşkil edir. Bu gün Qərb ölkələrinin enerji siyasətinin əsas çaları hesab edilən "Nabucco" kəmərinin reallaşması məhz bu iki qardaş ölkə arasında razılaşdırılan yeni qaz sazişindən asılıdır. Habelə daha əvvəl Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin istifadəyə verilməsi enerji təhlükəsizliyinin təminatında nadir hadisə hesab olunur.

"Eyni zamanda, Azərbaycan ilə Türkiyə arasında dostluq, habelə sıx iqtisadi münasibətlər fonunda hər iki ölkənin vəzifəli şəxsləri qarşılıqlı mütəmadi səfərlər həyata keçirirlər. Bu mənada hökumət nümayəndələrinin, habelə deputatların və siyasi partiya rəhbərlərinin səfərləri mühüm yer tutur.

Təbii ki, münasibətlərin hər zaman yüksək səviyyədə olması üçün hər iki tərəfin göstərdiyi səylərlə yanaşı, eyni tarix, eyni dil və xalqlarımızı birləşdirən mühüm məqamlar hər zaman prioritet təşkil edir. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi : "Türkiyə-Azərbaycan dostluğu sarsılmazdır, əbədidir", - deyə A.Əliyev vurğulayıb.

## Vüsal Qasımlı: "Qarabağda iqtisadiyyatın 6 əsas istiqaməti və 4 ağırlıq mərkəzi var"



İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı bildirib ki, Qarabağda iqtisadiyyat altı əsas istiqamət və dörd əsas ağırlıq mərkəzi üzrə dövlət-özəl partnyorluğu ilə inkişaf etdiriləcək: "Qarabağda iqtisadiyyatın altı əsas istiqamətdə inkişafı gözlənilir: aqrar biznes, ərzaq sənayesi, dağ-mədən sənayesi, yaşıl enerji, nəqliyyat-logistika və turizm. 200 min hektar kənd təsərrüfatı sahəsi və bundan da çox örüş sahəsi, həmçinin keçmiş cəbhə xətti boyunca istifadəsiz qalan on minlərlə hektar torpaq sahəsi aqrar biznesin resurs əsasını təşkil edir. Hesablamalar göstərir ki, orta müddətli perspektivdə Qarabağ bölgəsi ölkənin kənd təsərrüfatına 10,4 faiz töhfə verəcəkdir. 167 faydalı qazıntı ehtiyatı hesabına Qarabağda dağ-mədən sənayesinin inkişafı planlaşdırılır. Xüsusən də, Söyüdlü yatağının hesabına Kəlbəcərin bölgədə dağ-mədən sənayesinin mərkəzinə çevrilməsi imkanları genişdir. Qarabağ bölgəsinin ölkəmizdə mədənçıxarma sənayesinə təsiri 5,3 faiz, emal sənayesinə isə 4,3 faiz ola bilər.

Cəbrayıl rayonu nəqliyyat-logistika mərkəzi olmaqla, həm Türkiyə və İran, həm də Qarabağın digər regionlarımızla əlaqə xətlərinin üzərində yerləşir. Qarabağ bölgəsinin Azərbaycanda nəqliyyat xidmətlərinə olan təsiri 4,9 faiz qiymətləndirilir. Şuşa nəinki Qarabağın, bütövlükdə Azərbaycanın, gələcək illərdə isə islam və türk dünyasının mədəniyyət mərkəzi statusunda turizmin əsas drayverinə çevriləcək. Qarabağ bölgəsinin ən iri şəhəri 70 minlik - Ağdam şəhəri isə bölgənin yüngül sənaye və xidmət mərkəzi funksiyasını daşıya bilər.

Qarabağ bölgəsində 0,5 GVatt külək, 0,7 GVatt su və 4 GVatt günəş enerjisi potensialı regionun yaşıl enerji zonasına çevrilməsinə zəmin yaradır. Xudafərin, Qız Qalası, Suqovuşan stansiyaları, həmçinin Kəlbəcər və Laçındakı kiçik su elektrik stansiyaları Qarabağ bölgəsinin ilkin enerji tələbatını ödəmək gücündədir. BP-nin Qarabağda yaşıl enerjiyə sərmayə yatırmaq niyyəti nəinki alternativ enerji sahəsinə, bütövlükdə Qarabağ bölgəsinə sərmayə cəlbinə əlavə təkandır".

V.Qasımlı bildirib ki, Qarabağda təhlükəsizliyin təmin olunması, o cümlədən, minalardan təmizlənmə və infrastrukturun yaradılması istiqamətində əsas yük dövlət büdcəsinin üzərinə düşsə də, beynəlxalq inkişaf partnyorları, özəl sektor və diaspora sərmayələri iqtisadiyyatın canlandırılmasında həlledici ola bilər. Həmçinin 2030-cu ilə qədər Qarabağ Azərbaycanın qeyri-neft sektorunun 5-10 faizi həddində iqtisadiyyata malik ola bilər.

## Misirli professor: Azərbaycanlı jurnalistlərin həlak olması terror aktıdır



Azərbaycanlı jurnalistlərin Kəlbəcər rayonunda peşə fəaliyyətini yerinə yetirərkən Ermənistan silahlı qüvvələri tərəfindən basdırılmış minaya düşərək həlak olmasını terror aktı kimi qiymətləndirirəm. Bu, onilliklərdir davam edən erməni terrorunun daha bir təzahürüdür.

Bu sözləri AZƏRTAC-ın xüsusi müxbirinə müsahibəsində Misirin Həlvan Universitetinin professoru, publisist Adil Dərviş söyləyib. O deyib: "AZƏRTAC-ın əməkdaşı Məhərrəm İbrahimovun və Azərbaycan Televiziyasının operatoru Sirac Abışovun ailələrinə, yaxınlarına, həmçinin onların çalışdıqları kollektivlərin üzvlərinə dərin hüznlə başsağlığı verirəm. Bildirmək istəyirəm ki, Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı Azərbaycan ərazilərini minalaması və atəşkəs elan edildikdən 6 aydan çox keçməsinə rəğmən xəritələri təqdim etməməsi beynəlxalq hüquq normalarına ziddir. Həmin ərazilərdə mülki şəxslər minaya düşərək həlak olur, eyni zamanda, məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması prosesi də ləngiyir. Ermənistan silahlı qüvvələrinin bu əməlləri beynəlxalq səviyyədə cəzalandırılmalıdır. Dinc əhalinin başına gətirilən müsibətləri, mülki şəxslərin, o cümlədən media nümayəndələrinin həlak olmasına son qoyulmalıdır. Bunun üçün terror aktlarına və hərbi təxribatlara rəvac verən Ermənistana qarşı sanksiyalar tətbiq edilməli, faciələrin baiskarları ən ağır şəkildə cəzalandırılamlıdır".

Beynəlxalq təşkilatların müharibədə məğlubiyyətə uğrayan Ermənistanın təxribatları davam etdirməsinə göz yumması, hətta bəzi dövlətlərin erməniləri himayə etməsinin yolverilməz olduğunu da qeyd edən Adil Dərviş vurğulayıb: "Bu cür laqeyd münasibət terrorçu ölkəni daha da cəsarətləndirir. Yaxın tarixə nəzər salaq; Ermənistan Azərbaycan ərazilərinin 20 faizini işğal etdi və BMT-nin məlum qətnamələrinə rəğmən, bu torpaqları boşaltmaqdan imtina etdi. Bununla yanaşı, 30 ilə yaxın müddətdə, atəşkəs rejiminin olduğu dövrdə belə ermənilər əvvəlki təmas xəttində təxribatlar törədərək azərbaycanlı hərbçiləri və mülki şəxsləri qətlə yetirdi. Beynəlxalq ictimaiyyət bu faktlara biganə yanaşdı, işğalçı ölkədən sərhədlərin toxunulmazlığı və ərazi bütövlüyü prinsiplərinə əməl etməsini tələb etmədi. Bunun nəticəsi olaraq, Azərbaycan növbəti erməni hərbi təxribatından sonra başlayan ədalətli müharibədə böyük Zəfər qazandı və torpaqlarını azad etdi. Hərb meydanında darmadağın olan erməni silahlı qüvvələri müharibədən sonra da revanşist əhval-ruhiyyəsi ilə təxribatları davam etdirir. Nəhayət, beynəlxalq təşkilatlar buna son qoymaq üçün qətiyyətli mövqe nümayiş etdirməlidir. Öz peşə fəaliyyətini icra edən jurnalistlər atəşkəs dövründə nəyə görə həlak olmalıdırlar? Ermənistanın regionda sülhə və təhlükəsizliyə təhdid olan əməlləri nə qədər davam edəcək? BMT də, İslam Əməkdaşlıq Təşkilatı da, ATƏT də buna son qoyulması istiqamətində təsirli tədbirlər görməlidirlər".

## İspaniyanın "El Boletin" nəşri: Jurnalistika matəm içərisindədir

İspaniyanın müstəqil "El Boletin" onlayn qəzetində "Migel de Servantes" İspaniya-Əlcəzair Mədəniyyət Assosiasiyasının prezidenti Fernando Novo Lensin "Jurnalistika matəm içərisindədir" sərlövhəli məqaləsi dərc edilib. Məqalədə Azərbaycanın işğaldan azad edilmiş Kəlbəcər rayonunda iki azərbaycanlı jurnalistin və icra hakimiyyətinin nümayəndəsinin həlak olmasından söhbət açılır.


elBoletin
Internacional | Azerbayán
El periodismo está de luto
Azerbaiyán
La sinrazón de los conflictos armados se ha cobrado al oeste de la región de Nagorno-Karabakh (Azerbaiyán) la vida de dos periodistas.
por Fernando Novo Lens. Encuentros con España
junio 8, 2021 | 9:10 am
Una vez más, la sinrazón de los conflictos armados se ha cobrado, el pasado viernes 4 de junio, al oeste de la región de Karabakh (Azerbaiyán) la vida de dos periodistas.

AZƏRTAC xəbər verir ki, F.Lens iyunun 4-də Azərbaycanın Qarabağ bölgəsində, Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində xidməti vəzifələrini yerinə yetirərkən Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) müxbiri Məhərrəm İbrahimovun, Azərbaycan Televiziyasının (AzTV) operatoru Sirac Abışovun və Kəlbəcər rayonu icra başçısının Susuzluq kənd inzibati-ərazi dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyevin erməni əsgərləri tərəfindən basdırılmış tank əleyhinə minaya düşərək həlak olmalarını diqqətə çatdırır.

İspaniya nəşri yazır ki, müharibənin gedişində, ilk növbədə, həqiqət qurbana çevrilir. İşləmək imkanı verilməyən, fotoaparat, mikrofon və noutbukdan savayı qeyri silahı olmayan jurnalistlər həqiqətləri dünyaya çatdırmaq üçün hər an həyatlarını riskə atırlar. Gərgin vəziyyətlərin icmalını daha obyektiv və sərbəst təqdim etməyə çalışan jurnalistlər əksər hallarda özləri də bilmədən silahlı münaqişəyə cəlb edilmiş olurlar.

"El Boletin" qeyd edir ki, bu ciddi insident minanı oraya basdıranların qarşı tərəfə zərər vurmaq, insanların öz evlərinə dönmələrinə mane olmaq istəyindən xəbər verir.

Fernando Novo Lens diqqətə çatdırır ki, bu mina erməni ordusunun işğal etdiyi ərazilərdə dəhşətli vəziyyət yaratmaq və dinc əhalini məhv etmək niyyətilə basdırdıqları 35 mindən artıq minadan biridir. Həmin minalar ötən ilin 10 noyabrında imzalanan atəşkəs haqqında razılaşmadan sonra 27 nəfərdən çox insanın həyatına son qoyub, 100-dən çox insan yaralanıb.

Qeyd olunur ki, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi tərəfindən 7 ay ərzində 3643 tank əleyhinə, 7449 piyada əleyhinə mina və 9033 digər partlamamış silah-sursatı zərərsizləşdirilib.

İspaniya nəşri ATƏT-i, Avropa İttifaqını və digər beynəlxalq strukturları Ermənistanı minalanmış ərazilərin xəritəsini təqdim etməyə məcbur etmək üçün səyləri artırmağa və lazımi tədbirlər görməyə çağırıb. Fernando Novo Lensin fikrincə, Ermənistan başa düşməlidir ki, regionda real sülh və təhlükəsizlik bərqərar olmayınca, dinc yanaşı yaşama, hamıya fayda gətirəcək Azərbaycan və Ermənistanın birgə inkişafı və əməkdaşlığı mümkün deyil.

Jurnalist icması ilə həmrəy olduğunu bildirən Fernando Novo Lens həlak olmuş jurnalistlərin və icra nümayəndəsinin ailələrinə və dostlarına dərin hüznlə başsağlığı verib, hadisədə yaralanan 4 nəfərin tezliklə sağalmalarını arzulayıb. O, sözünə yekun vuraraq deyib ki, qələm qılıncdan güclüdür, lakin həsabatlar əksər hallarda qanla, xidməti vəzifələrini yerinə yetirdikləri zaman həlak olan jurnalistlərin qanı ilə yazılır. Cəmiyyət başa düşməlidir ki, jurnalistlərin həlak olması çox baha başa gəlir, cəmiyyət bunu heç vaxt qəbul etməməli, buna yol verməməlidir.

# Sorosun etirafları: "ŞQİİ" adlı quruma dəstək göstərən kimlərdir?

*Yaxud, düşmənlərimizə qarşı "İtiqovan" prosedurunu davam etdirmək lazımdır*

**Məlum olduğu kimi, Corc Sorosun Azərbaycandakı fəaliyyətinə son qoyulduqdan sonra onun xırda-para (əslində isə çoxşaxəli) təşkilat və qurumları hələ də qara əllərini ölkəmizə tərəf uzatmağa cəhdlər göstərirlər. Bu misalda biz "Şərq-Qərb İdarəetmə İnstitutu" ("ŞQİİ") barədə danışa bilərik. Daha doğrusu, adıçəkilən qurumun bu və ya digər cinahlardan ölkəmiz əleyhinə yönəlmiş layihələri haqqında kifayət qədər materiallar verilib, lakin daha bir maraqlı məqam isə budur ki, onun fəaliyyətini burada dəstəkləyən dairələr də mövcuddur. Ona görə də, Sorosun bu çərçivədə önə sürdüyü etiraflarının bir mühüm hissəsini nəzərə çatdırmaq yerinə düşərdi.**

Beləliklə, Corc Soros hələ 1991-ci ildə yazdığı və bütün dünyada siyasi çevrilişlərin təşkili üzrə "müqəddəs" masaüstü kitab kimi qəbul olunan "Demokratiyanı Quraraq (Undewriting democracy)" adlı "əsərində" "Şərq-Qərb İdarəetmə İnstitutunu" hansı məqsədlə yaratdığını açıq etiraf edir.

### Soros deyir ki...

SİTAT:".... Sonralar mən "Mərkəzi Avropa İnstitutu" və "Şərq-Qərb İdarəetmə İnstitutu"nu yaratdım və mən bunları daimi təsisatlar kimi nəzərdə tuturdum. Aydın idi ki, ölkələr üzrə yaratdığım fondlar əvvəl-axır süquta uğrayacaqlar. Belə, ki, zülmkar və doqmatik sistemlər tam məhv edildikdən sonra yerli vətəndaş təşkilatlarını dəstəkləməyə ehtiyac qalmayacaqdır ..."

Yazı ilə aşağıdakı linkdən tanış ola bilərsiniz:

https://www.georgesoros.com/wp-content/uploads/2017/10/underwriting-_democracy-chap-7-2017_10_05.pdf

Necə deyərlər, şərhsiz! Corc Soros özü etiraf edir ki, birincisi o, müxtəlif ölkələrdə dövlət quruluşlarını devirmək proseslərini dəstəkləyir, ikincisi, bu adam etiraf edir ki, "Açıq Cəmiyyət İnstitutunun ölkələr üzrə nümayəndəliklərin məqsədləri məhz bu kimi çevrişləri əlaqələndirməkdir. Üçüncüsu isə etiraf edir ki, "Şərq Qərb İdarəetmə İnstitutu"nun yaradılmasının əsas məqsədi məhz bu fəaliyyətləri əlaqələndirməkdir.



Ancaq sonralar bir çox dövlətlər "yuxudan" ayılıb Sorosun yerli nümayəndəklərini ölkələrindən qovduqdan sonra Soros strategiyasını dəyişərək, həmin ölkələrdə bir başa "Şərq Qərb İdarəetmə İnstitutunun" filiallarını yaradır ki, inqilabları, qiyam və çevrilişlər birbaşa bu təşkilat əlaqələndirsin və bu işdə ona sərəncamında olan ABŞ-ın Demokratlar partiyası, eləcə də USAİD yardımçı olur.

Biz "ŞQİİ" haqqında ətraflı aşağıdakı yazılarda məlumat vermişik:

https://sia.az/az/news/politics/870425.html

https://sia.az/az/news/politics/856893.html

Lakin maraqlıdır ki, "ŞQİİ" hələ də Azərbaycanda USAİD-in dəstəyi ilə və bir sıra qurumlarla şübhəli fəaliyyətlər göstərir. Sual yaranır ki, əcəba bu təşkilatla əməkdaşlıq edən və rəsmi, ya da qeyri-rəsmi işbirliyi quran qurumların məqsədləri nəyə hesablanıb?

### Bir çox soroçunun müxtəlif qurumlarda gizli işlər çevirmələri məlum faktlardır

Son zamanlar biz ölkəmizə qarşı müəyyən təxribatların artmasında Sorosun maliyyələşdirdiyi şəbəkələrin fəallıqlarının çoxaldığını müşahidə edirik. Və Sorosun Azərbaycandakı uzun illər fəaliyyətini nəzərdən keçirdikdə, bir çox soroçunun müxtəlif qurumlarda gizli işlər çevirmələri məlum faktlardır. Bütün bu proseslər isə onu göstərir ki, heç də boş dayanmayan Sorosun Azərbaycanla bağlı yeni planı var və planın icrasında və əlaqələndirilməsində "Şərq Qərb İdarəetmə İnstitutu"na xüsusi rol ayrılıb.

Nəticə etibarı ilə onu da deyə bilərik ki, artıq ölkədə Sorosun bu və ya digər adlar altında əleyhimizə işləyən təşkilatlarının qanunsuz fəaliyyətini dəstəkləyən qüvvələri də müəyyənləşdirərək ifşa etmək zamandır. Əgər zamanında düşmənlərimizə qarşı "İtiqovan" proseduru həyata keçiriliridisə, onda bu düşmənlərin dəyirmanlarına su tökən sapı özümüzdən olan baltaları da öncəliklə kütləşdirmək, sonra isə "İtiqovan" proseduru vasitəsi ilə neytrallaşdırmaq vacibdir.

***Rövşən RƏSULOV***



# "Ərdoğanın səfərində mühüm mesajlar olacaq"

"Azərbaycan-Türkiyə münasibətlərinin Cənubi Qafqazın geosiyasi dinamikasına böyük təsiri vardır. Bölgədə real balans bu dövlətlərin əməkdaşlığından birbaşa asılıdır. NATO-nun növbəti zirvə görüşü və Qarabağda yaşanan təxribatlar müstəvisində Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya səfərinə yanaşanda maraq doğuran bir sıra məqamları görmək mümkündür". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Züriyə Qarayeva deyib.

Politoloqun sözlərinə görə, bu səfər çərçivəsində vacib bəyanatlar səslənəcək, bunlar arasında geosiyasi, münaqişədən sonrakı Qarabağın sonrakı taleyini təyin edəcək mesajlar olacaq: "Sonuncu dəfə Ərdoğan Azərbaycana 2020-ci ilin dekabrında gəlmişdi. Türkiyə lideri Bakıda Azərbaycanın İkinci Qarabağ müharibəsində qələbəsi şərəfinə təşkil olan paradda iştirak etmişdi. O zaman Ərdoğan Prezident İlham Əliyevin altı ölkədən - Azərbaycan, Ermənistan, Gürcüstan, Rusiya, Türkiyə, İran - ibarət platformanın yaradılması təşəbbüsünü dəstəklədiyini bəyan etmişdi. Bu dəfəki səfərin mahiyyəti digərindən fərqlənir. Çünki son dövrlər sərhəddə baş verən insidentlərin, erməni separatçılarının təxribat əməlləri və müvəqqəti baş nazir Paşinyanın üçtərəfli bəyanatın maddələrini icra etməkdən imtina etməsi, bununla bağlı yaradılan üçtərəfli komissiyadan çıxması bu görüş barədə gözləntiləri dəyişir".

Z.Qarayeva vurğulayıb ki, Ərdoğanın belə bir vaxtda Şuşaya səfər etməsi düşmən tərəfə birlik göstərişi olmaqla yanaşı, problemlərin həllinə töhvə verəcək razılaşmalardan da xəbər verir: "Danışıqlar sırasında Şuşada hərbi qarnizonun yaradılması və rus sülhməramlılarının postları yaxınlığında türk sülhməramlılarının da post qurması məsələsi gündəmə gətirilə bilər. Digər tərəfdən, zirvə toplantısında Putin və Bayden görüşünün ardınca belə bir görüşün planlaşdırılması belə bir mesaj verir ki, iki supergüc ölkə rəhbərlərinin öz aralarında hansı razılığa gəlməsindən asılı olmayaraq Türkiyə Azərbaycanın yanındadır".

***Aysel Məmmədova***

# Rusiyalı politoloqdan Lavrovun bəyanatı ilə bağlı iddia

## Aleksandr Sıtin: "Ermənilər Rusiyaya arxalanaraq Qarabağın bir hissəsinin onlarda qalması üçün cəhdlərini davam edəcəklər"

Rusiyanın xarici işlər naziri Sergey Lavrovun "Promakov mütaliəsi" ("Primakovskie çteniə") forumunda Qarabağın "statusu" barədə fikir bildirməsi Ermənistan KİV-lərini hərəkətə gətirib. Belə ki, Rusiya diplomatiyasının xarici işlər idarəsinin rəhbəri bildirib ki, Qarabağın statusunu ATƏT-in Minsk qrupunun iştirakı ilə razılaşdırmaq lazımdır, ancaq indi bunun üzərində aksent etməyə də ehtiyac yoxdur, əsas olaraq regionun dinc həyata qayıtması lazımdır. Ermənistandan fərqli olaraq, bu sözlər Azərbaycanın ekspertlər dairəsində anlaşılmazlıq yaradıb.

### II Qareginin və müxalifət lideri Vanetsyanın Laçın dəhlizindən buraxılmasını başqa necə adlandırmaq olar?

Axı kifayət qədər bəlli və aydındır ki, erməni tərəfi Qarabağ münaqişəsinin sülh yolu ilə həllindən imtina etdikdən sonra status məsələsi birdəfəlik bağlandı. Sonra isə zəfərlə müşahidə edilən Vətən müharibəsi başladı və Azərbaycan Qarabağda ərazi bütövlüyünü bərpa etdi. Bundan sonra da Azərbaycan Prezidenti dəfələrlə bəyan etdi ki, "status" məsələsi artıq yoxdur və olmayacaq.



Sözügedən forumda Rusiya XİN rəhbəri rusiyalı sülhməramlıların fəaliyyətlərinə də toxunub və qeyd edib ki, onlar öz mandatlarını icra edirlər və hər hansı nəhəng insident, ümumiyyətlə, yaşanmayıb. Ancaq buna baxmayaraq, o etiraf edib ki, kiçik hadisələr baş verir və onlar qısa zamanda aradan qaldırılırlar. Mümkündür ki, Sergey Lavrov burada bütün ermənilərin katolikosu II Qareginin Azərbaycanın ərazisinə, Qarabağa səfərini nəzərdə tutub və əlbəttə ki, həmin səfəri təxribatçı davranışdan başqa heç cür adlandırmaq mümkün deyil. Belə ki, rusiyalı sülhməramlıların nəzarətlərinə verilmiş Laçın dəhlizi vasitəsi ilə Qarabağa Ermənistan müxalifətinin liderlərindən olan Artur Vanetsyan da səfər edib, özü də seçki platforması ilə.

### Rəsmi Bakı hansı addımlarını ata bilər?

Bütün bunlardan sonra Azərbaycanın Rusiya sülhməramlılarına göstərdiyi etimad istər-istəməz sual altına düşür və bu etimadın azalması isə postmüharibə dövrünə, xüsusilə regionun sabitliyinin möhkəmləndirilməsi maraqlarına dolğun cavablar vermir, əksinə, mənfi təsirlərini göstərir. O da məlumdur ki, üçtərəfli bəyanata əsasən, rəsmi Bakı birtərəfli qaydaya uyğun olaraq üzərlərinə düşən məsuliyyətlərini doğru-dürüst icra etməyən rus sülhməramlılarından imtina edə və ərazilərimizdən çıxarılması üçün qərar verə bilər.

SİA xəbər verir ki, sözügedən mövzu ilə bağlı rusdilli caliber analitik informasiya portalına açıqlama verən rusiyalı politoloq, tarix elmləri namizədi, Şimali və Şərqi Avropa ölkələri üzrə siyasi araşdırmalar mərkəzinin rəhbəri Aleksandr Sıtin şəxsi fikrinə əsaslanaraq hesab edir ki, Rusiya Federasiyası özünün sülhməramlı kontingenti ilə faktiki olaraq ermənilərin maraqlarına xidmət edir və erməni məsələsi sülhməramlılar tərəfindən dəstəklənir. "Ermənilər isə Rusiyaya arxalanaraq Qarabağın bir hissənin onlarda qalması üçün cəhdlərini davam edəcəklər", deyə Aleksandr Sıtin bildirib. Beləliklə, o iddia edib ki, ermənilər Xankəndini özlərinə saxlamağa çalışırlar və Moskva onlara köməklik göstərir. Bütün bu kimi reallıqlar isə əlbəttə ki, düşüncələrə və yekun qənaətlərə gəlməyə kifayət qədər rəvac verir.

***Rövşən RƏSULOV***

ANALİTİK

# Müasir yol infrastrukturu iqtisadi inkişaf üçün mühüm amildir

*Prezident İlham Əliyevin Sərəncamı ilə Bakı şəhərinin Pirallahı rayonu ərazisində avtomobil yollarının yenidən qurulmasına 660 min manat ayrıldı*

**Azərbaycanda yol infrastrukturunun inkişafı dövlətin əsas prioritetlərindən birinə çevrilib. Belə ki, son illər paytaxt Bakıda və rayonlarda yol infrastrukturunun genişləndirilməsi ilə bağlı mühüm tədbirlər görülür. Həyata keçirilən məqsədyönlü işlər nəticəsində yol-nəqliyyat kompleksinin ayrı-ayrı qurğuları yüksək keyfiyyətlə tikilərək istismara verilir. Yol-nəqliyyat sisteminin təkmilləşdirilməsi sosialyönümlü tədbirlər olmaqla yanaşı, ölkəmizin iqtisadi qüdrətinin də göstəricisidir. Azərbaycan bu gün Avrasiya məkanında dinamik innovativ inkişaf edən lider dövlət, həm də iki qitə arasında mühüm və ən əlverişli nəqliyyat mərkəzidir.**

Bu mövqe düzgün siyasət, gələcək perspektivi aydın müəyyənləşdirən strateji kurs və vaxtında ən optimal islahatlar keçirilməsi, müasir layihələr icra edilməsi nəticəsində qazanılıb. Azərbaycanın regionlarında, paytaxt Bakıda yol-nəqliyyat infrastrukturu müasirləşdirilir, avtomobil yolları şəbəkəsi yenidən qurulur. Yeni yolötürücüləri, körpülər, tunellər, yerüstü və yeraltı piyada keçidləri inşa edilir. Azərbaycan yol infrastrukturunun inkişaf səviyyəsinə görə beynəlxalq təşkilatların tərtib etdiyi hesabatlarda ön sırada qərarlaşır. Prezident İlham Əliyevin imzaladığı növbəti Sərəncama əsasən, Bakı şəhərinin Pirallahı rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 660 min manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılır.



### "Müasir infrastruktur və yol olmadan iqtisadi inkişaf mümkün deyil"

Ölkə regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramları təsdiq edilərkən qarşıya qoyulan başlıca hədəflər arasında yol təsərrüfatının bərpası, yenidən qurulması və müasir standartlara çatdırılması xüsusi yer tutub. "Müasir infrastruktur və yol olmadan iqtisadi inkişaf mümkün deyil" - deyən Azərbaycan Prezidenti buna nail olmaq məqsədilə yol qurğularının, eləcə də ölkənin bütün regionlarını və yaşayış məntəqələrini birləşdirən avtomobil yollarının yenidən qurulması və tikintisi üzrə irimiqyaslı layihələr həyata keçirilməsinə diqqət ayırır.

Prezident İlham Əliyev bölgələrə, demək olar ki, bütün səfərləri zamanı respublika və yerli əhəmiyyətli yolların yenidən qurulması, hətta ucqar dağ kəndlərinə yeni yolların çəkilməsi ilə bağlı konkret tapşırıqlar verir. Bunun nəticəsi olaraq Lənkəran-Lerik, Masallı-Yardımlı, Gəncə-Daşkəsən-Xoşbulaq, Quba-İspik-Xınalıq, Şamaxı-Pirqulu, Tovuz-Əlibəyli, Şəmkir-Gədəbəy, İsmayıllı-Qəbələ, Xaldan-Mingəçevir, Ağdaş-Ləki, Quba-Qəçrəş-Qımılqazma, Qəbələ-Ağdaş, Oğuz-Qəbələ, Quba-Qusar, Şəki-Qax, Ağstafa-Poylu-Gürcüstan sərhədi, Yevlax-Bərdə və digər avtomobil yolları yenidən qurulmuş, ölkədaxili yol infrastrukturu əhəmiyyətli dərəcədə inkişaf etmişdir.

Bu gün ölkəmizdə avtomobil yollarında hərəkətin təhlükəsizliyini və vətəndaşların avtomobil yollarını rahat və təhlükəsiz şəkildə keçməsini təmin etmək məqsədilə kompleks tədbirlər icra olunur. Bu baxımdan, yerüstü və yeraltı piyada keçidlərinin tikintisi işləri xüsusi əhəmiyyəti ilə seçilir. Görülən işlər ümumilikdə paytaxtımızın nəqliyyat infrastrukturunun müasirləşdirilməsinə töhfə verir.

### "Bu gün Azərbaycan nəqliyyat sahəsində dünyada lider dövlətlərdən biridir"

Qələbə ili olan 2020-ci ili yola salaraq bu gün 2021-ci ilə daha böyük nailiyyətlər əldə etmək üçün ilk gündən yenə də xalq-iqtidar birliyi ilə qarşıda duran vəzifələrin inkişafına başlanılıb. Məhz milli birliyimiz və dövlətimizin başçısının bu birlikdən güc alan müstəqil siyasəti qlobal maliyyə-iqtisadi böhranın ölkəmizə təsirini aradan qaldırmağa, dayanıqlı sosial-iqtisadi inkişafı təmin etməyə imkan verir. Ölkəmizin davamlı inkişafına, xalqımızın rifahının yüksəlişinə xidmət edən, sürətlə yeniləşən və müasirləşən avtomobil-yol təsərrüfatı da müstəqil dövlətçiliyimizin çox mühüm nailiyyətlərindəndir. Bu sahədə Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyanı son on yeddi ildə möhtərəm Prezidentimiz İlham Əliyev uğurla davam etdirərək, dövrün tələblərinə, zamanın çağırışlarına uyğun olaraq daha da zənginləşdirib.

### "Son 17 il ərzində 17 min kilometrdən çox avtomobil yolu tikilib, həm magistral yollar, həm kənd yolları, həm də şəhərlərarası yollar"

Prezident İlham Əliyev yanvarın 26-da Rəşad Nəbiyevi nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən çıxış edərək bildirmişdir ki, bu sahəyə daima böyük diqqət göstərilir ki, bu gün reallıqlar göz önündədir: "Rəhbərlik edəcəyiniz sahələrə mən daim böyük diqqət göstərmişəm, bu gün də göstərirəm. Son illərdə bu sahələr uğurla inkişaf edib. Mən Prezident vəzifəsinə seçiləndə həm nəqliyyatda, həm də rabitə sahəsində vəziyyət bizi qane etmirdi. O vaxt yüksək texnologiyalardan, ümumiyyətlə, söhbət getmirdi, yollar bərbad vəziyyətdə idi, dəmir yolları infrastrukturu köhnəlmişdi, dəniz nəqliyyatı sahəsində hər hansı bir irəliləyiş yox idi, əksinə, bizim donanmamız böyük dərəcədə köhnəlmişdi. Bütövlükdə bu sahədə vəziyyət ürəkaçan deyildi. Görülmüş tədbirlər nəticəsində bu gün Azərbaycan nəqliyyat sahəsində dünyada lider dövlətlərdən biridir", - deyən dövlət başçısı onu da bildirib ki, son 17 il ərzində 17 min kilometrdən çox avtomobil yolu tikilib: "Çünki yol olmayan yerdə inkişaf da olmur. Yol olmayan yerdə fermer öz məhsulunu bazara çatdıra bilmir".

### "Dəmir yolları olmayan yerdə heç bir tranzit imkanından söhbət gedə bilməz"

"Dəmir yolları olmayan yerdə heç bir tranzit imkanından söhbət gedə bilməz",-deyən dövlət başçısı vurğulamışdır ki, ilk növbədə, ölkə daxilində infrastrukturu tamamilə yenidən qurduq, eyni zamanda, ölkəmiz üçün çox vacib olan və uzunmüddətli inkişaf strategiyamıza uyğun olan tranzit imkanları da yaratmışıq: "Son 17 il ərzində 17 min kilometrdən çox avtomobil yolu tikilib, həm magistral yollar, həm kənd yolları, həm də şəhərlərarası yollar. Bu proses bu gün də davam etdirilir. Eyni zamanda, azad edilmiş torpaqlarda da yol infrastrukturunun yaradılmasına bu il start verilmişdir. Biz bu işləri planlı şəkildə görəcəyik. Füzulidən Şuşa şəhərinə açılmış yeni yol onu göstərir ki, biz bu işləri faktiki olaraq ən qısa müddət ərzində görə bilirik".

Bir sözlə, ölkə Prezidenti İlham Əliyevin uğurlu islahatları, vaxtında qəbul etdiyi qərarları, qətiyyətli mövqeyi onu deməyə əsas verir ki, heç bir qüvvə ölkəmizin nüfuzunu sarsıda bilməz. Çünki dövlətimiz Ulu öndər ideologiyası və Onun qoyduğu siyasi xətt üzrə uğurla idarə olunmaqda və inkişaf etməkdədir. Dövlət başçımızın dediyi kimi: "Çünki yol rahatlıqdır, inkişafdır. Yol olan yerdə inkişaf da var. Yol həm sosialyönümlü layihədir, həm də iqtisadi layihədir. Ona görə də yol layihələri bundan sonra da uğurla icra ediləcək".

***RƏFİQƏ KAMALQIZI***

## Ermənistanda revanşistlərin qalması regiona sülh vəd etmir

"3 iyun 2021-ci ildə Ermənistan prezidenti Armen Sarqsyan Qazaxıstana işgüzar səfər edib. Armen Sarqsyan səfər çərçivəsində jurnalistlərin suallarına cavab verərkən Ermənistanla Azərbaycan arasında 30 ilə yaxın davam etmiş Dağlıq Qarabağ münaqişəsinə də toxunub və münaqişə ilə bağlı maraqlı, həm də sərsəm açıqlama verib. O bildirib ki, müharibə bitməyib, sadəcə atəşkəs imzalanıb. 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli razılaşmada sülhlə bağlı hansısa bənd yoxdur. Qarabağın statusu yolu ilə hara gedəcəyimiz, danışıqların nə vaxt başlayacağı və prosesin necə olacağı da məlum deyil". Bu



fikirləri SİA-ya açıqlamasında politoloq Samir Hümbətov deyib.

Politoloqun sözlərinə görə, "Ermənistanla Azərbaycan arasındakı münasibətlər necə olacaq" sualına cavab olaraq Armen Sarqsyan bildirib: "Əminəm ki, bunun nəinki sərhəd bölgələrində yaşayan vətəndaşlarımız, həm də bütün Ermənistan vətəndaşları üçün nə qədər ağrılı olduğunu bilirsiniz". Prezident Armen Saqsyanın Ermənistan üçün həssas zamanda belə açıqlama verməsinin arxasında bir neçə səbəb dayana bilər. Birincisi, Ermənistandakı mövcud hökumət vətəndaşların rəğbətini qazanmaq və seçkidə qalib gəlmək üçün verilmiş bəyanat xarakteri də daşıya bilər. İkincisi, Ermənistanda da Rusiyanın münaqişənin nizamlayıcı tərəf olduğuna inamın az olması. Üçüncüsü, regionda və dünyada baş verən proseslərin təsiri ilə digər maraqlı ölkələrin Ermənistana təziq etmək cəhdlərinin olması haqqında mövcud hökumətə verilmiş siqnallar. Dördüncüsü, Ermənistandakı mövcud hökumətin daxilində Qarabağ münaqişəsinin yekun həllinə nail olmaq və sülh müqaviləsinə imza atmaq məsələsində yekdil fikirin formalaşmaması". S.Hümbətov hesab edir ki, Ermənistan prezidentinin verdiyi açıqlamalara səbəb yuxarıda qeyd edilmiş səbəblərin olması ehtimalından da qaynaqlana bilər: "Digər tərəfdən məğlub və rəzil durumuna düşməsinə baxmayaraq Ermənistanda hələ də bəzi revanşist qüvvələrin qalması regiona, həmçinin bütövlükdə dünyaya sülh və təhlükəsizlik baxımından yaxşı heç nə vəd etmir. Təbii ki, gec, yaxud tez zamanda Ermənistanın Azərbaycanla danışıqlar masasına oturub sülh müqaviləsinin bəndlərini müzakirə edəcəyini görmək mümkün olacaq".

***Aysel Məmmədova***

## Pakistanlı ekspert: "Ermənistan dövlət səviyyəsində terrorçuluq və təxribatla məşğul olmağı dayandırmır"



Ermənistan dövlət səviyyəsində terrorçuluq və təxribatla məşğul olmağı dayandırmır. Bunu Trend-ə pakistanlı ekspert Xalid Taymur Əkrəm Kəlbəcər rayonunda azərbaycanlı jurnalistlərin minaya düşərək həlak olmasını şərh edərkən deyib.

O bildirib ki, dünya ictimaiyyəti dərhal bu faciəyə reaksiya göstərməlidir: "Bütün dünya ermənilərin və onların vəhşiliklərinin əsl üzünü gördü. Ona görə də dünya nəhayət, susqunluğunu pozmalı, Ermənistan barəsində ciddi tədbirlər görməli, ölkə rəhbərliyinə təzyiqlər göstərməlidir ki, minalanmış ərazilərin xəritəsini versin. Bunu humanitar baxımdan etmək lazımdır. Bu aspektdə Azərbaycanla qonşu ölkələrin, müttəfiqlərin səy göstərməsi vacibdir". Ekspertin fikrincə, əsas problem ondan ibarətdir ki, Ermənistanın əməlləri əvvəlki kimi regionda təhlükəsizliyə təhdid törədir və bu ölkə öz beynəlxalq öhdəliklərini yerinə yetirmir.

# "Qurtuluş günü olmasaydı tarixi nailiyyətlərimiz və zəfərimiz də olmazdı"

**"Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi əsasında istinad etdiyi rasional seçim strategiyası və bunun fonunda atdığı praqmatik addımlar sayəsində ölkədə hökm sürən və mütəmadi eskalasiya vəziyyətində qeyri-müəyyənliklə təzahür olunan destruktiv proseslərin mərhələli şəkildə neytrallaşdırılmasına nail olundu". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin üzvü Hikmət Babaoğlu deyib .**

Deputatın sözlərinə görə, həmin tarixi dövrün qanunauyğunluqları və reallıqlarına bir daha nəzər yetirdikdə belə bir nəticəyə gəlmək olur ki, qeyri-formal milli dövlət və modern cəmiyyət quruculuğu prosesinin sistematik surətdə əsası qoyulmamışdan öncə ölkə daxilində bir sıra dağıdıcı ünsürlərin qarşısının alınması, diskriminasiya və kataklizmlərlə müşayiət edilən xaotik proseslərin neytrallaşdırılması, bütün bunların fonunda isə siyasi sabitliyin təmin edilməsi lazım idi ki, Ümummilli Lider



Heydər Əliyev, ilk növbədə, sadalanan strateji vəzifələr üzərindən hərəkət edərək buna nail oldu: "Heydər Əliyevin sürətli strateji tədbirlər planı və milli siyasəti sayəsində ictimai-siyasi palitrada kardinal səciyyə daşıyan mərhələli reformativ tədbirlər görülmüşdü və bunun sayəsində bölücü faktorların neytrallaşdırılması mümkün idi. Bütün bu strateji tədbirlər sayəsində məhz bu cür də oldu, yəni, bölücü faktorların neytrallaşdırılmasına və ictimai-siyasi müstəvidə siyasi sabitliyin təmin olunmasına nail olundu. Yalnız 4 iyun dövlət çevrilişinin qarşısı alındıqdan və 15 iyun tarixində təcrübəli dövlət xadimi, uzaqgörən Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinə sədr seçilməsindən sonra Azərbaycan etnik və regional separatçılıqdan, vətəndaş müharibəsindən qurtuldu və ölkə sabit və dinamik inkişaf yoluna çıxarıldı".

H.Babaoğlu vurğulayıb ki, siyasi münasibətlər sistemimiz obyektiv əsaslarda yenidən formalaşdırıldı: "Ölkəmizdə hüquqi dövlət quruculuğu başladı, vətəndaş cəmiyyəti institutları yaradıldı və inkişaf etdirildi. Xalqımızın milli maraqlarına söykənən daxli və xarici siyasət strategiyası müəyyənləşdirildi. Bu gün də həmin yol inamla davam etdirilir və bu, Azərbaycan Prezidenti cənab İlham Əliyevin gərgin əməyi səmərəli fəaliyyəti sayəsində mümkün olur. Olduqca mürəkkəb bir regionda hazırki inkişafa və sabitliyə nail olmaq yalnız 4 iyun hadisələrindən obyektiv dərs çıxarmaq və onun nəticələrini düzgün qiymətləndirməklə mümkün ola bilərdi ki, Azərbaycan da bunu bacardı. Nəticədə 30 ilə yaxın erməni tapdağı altında qalan vətən torpaqlarımız işğaldan azad edildi. Azərbaycan Cənubi Qafqazın ən güclü dövlətinə çevrildi. Onun beynəlxalq münasibətlər sistemində yeri və rolu artdı. Hazırda isə bundan sonrakı tarixi ikişafımız üçün olduqca səmərəli perspektivlər yaradıldı. Ona görə də əminliklə deyə bilərik ki, 15 iyun Qurtuluş günü olmasaydı bu gün əldə etdiyimiz tarixi naliyyətlərimiz və zəfərimiz də olmazdı".

*Aysel Məmmədova*

# Vüqar Rəhimzadə: "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələri həm də ölkəmizin iqtisadi gücünün təqdimatıdır

**"Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu Zəfər tariximizi yazdıqdan sonra ölkəmizin həyatında yeni dövr- işğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq mərhələsi başladı.**

Cənab İlham Əliyev bu fikri xüsusi diqqətə çatdırdı ki, azad edilmiş ərazilərimiz ən yüksək səviyyədə, müasir texnologiyalar əsasında bərpa ediləcək, soydaşlarımız üçün gözəl şərait yaradılacaq. Möhtərəm Prezidentimizin 19 aprel 2021-ci il tarixli "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında" Sərəncamı da bu məqsədə xidmət edir. Bu kimi dövlət sənədləri bir daha təsdiqləyir ki, şəhər və kəndlərimizdə göstərilən xidmətlərin keyfiyyətinin, təhlükəsizliyinin, səmərəliliyinin artırılması, bu işlərin həyata keçirilməsi prosesində informasiya texnologiyalarının tətbiqi, həmin xidmətlər üzrə mövcud resursların effektiv istifadəsi və idarə olunmasının təmin edilməsi şəhər və kənd yerlərində dayanıqlı inkişafın əsas prioritetlərindəndir. Təqdirəlayiq haldır ki, artıq "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyasının tətbiqinin sürətləndirilməsi məqsədilə imzalanan Prezident Sərəncamından irəli gələn vəzifələrin icrasına başlanılıb."



Bu fikirləri "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, azad edilmiş ərazilərdə şəhərlər və kəndlər "Ağıllı şəhər", "Ağıllı kənd" konsepsiyası əsasında, dünyanın ən qabaqcıl texnologiyalarının tətbiqi şəraitində qurulacaq: "Bununla paralel olaraq digər şəhər və kəndlərimizdə də buna oxşar layihələrin icrası nəzərdə tutulur. Dövlətimizin başçısı İlham Əliyev "Əgər biz bunu bu gün etməsək, sabah geri qalacağıq. Biz geri qala bilmərik" fikirləri ilə yeni layihənin məqsəd və məramını, eyni zamanda, üstünlüklərini təqdim edir."

Baş redaktor bildirib ki, hər bir yenilik kadr potensialının artırılması məsələsini gündəmə gətirir: "Bu gün böyük qürur hissi ilə qeyd edirik ki, ölkəmizdə peşəkar kadr potensialı yaranıb. Cənab İlham Əliyev Azərbaycana rəhbərlik etməyə başladığı 2003-cü ildən "Neft kapitalını insan kapitalına çevirək" tezisini irəli sürərək, ölkədə təhsilin, elmin və iqtisadiyyatın vəhdətinin yaradılması fonunda iqtisadi inkişafın səviyyəsinə uyğun olaraq kadr hazırlığının prioritetliyini önə çəkdi və artıq bu siyasətin uğurlu nəticələri göz önündədir. Azərbaycan texnoloji proseslərin inkişafına görə də dünyada birincilər sırasındadır. İstər 44 günlük İkinci Qarabağ müharibəsi, istərsə də postmüharibə dövründə bunun bir daha şahidi olduq. Həmçinin 2019-cu ildən dünyanı cənginə almış koronavirus infeksiyası ilə mübarizə sahəsində beynəlxalq əhəmiyyətli tədbirlərin videoformatda təşkili də Azərbaycanın bu sahədə mövcud imkanlarının təqdimatında əhəmiyyətli rol oynadı. Azərbaycan gənclərinin xarici ölkələrin nüfuzlu ali məktəblərində təhsil almaları, əksəriyyətinin savadlı mütəxəssislər kimi ölkəmizə qayıtmaları kadr potensialımızı gücləndirir. Dövlətimizin başçısının əsas tələbi budur ki, kadr hazırlığı ölkəmizin iqtisadi və texnoloji inkişafı ilə uzlaşmalıdır. Bu sintezin yaradılması əsasında hədəflərə yüksək səviyyədə nail olmaq mümkündür. Bu baxımdan işğaldan azad olunmuş ərazilərimizdə həyata keçiriləcək "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələri ölkəmizin müasir dövrün reallıqlarına uyğun olaraq gündəmə gətirdiyi yeni çağırışlarına və tələblərinə cavab verir. Azərbaycanın postmüharibə dövrü üçün təqdim etdiyi yeni iqtisadi inkişaf modelinin əsas tərkib hissələrindən biri kimi "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələri beynəlxalq səviyyədə də təqdir edilir."

V.Rəhimzadə vurğulayıb ki, bu layihələr, ilk növbədə, Azərbaycanın iqtisadi imkanlarının təqdimatıdır: "Hər bir layihə yenilik olmaqla yanaşı, möhkəm təmələ əsaslanır. Azərbaycanın iqtisadi qüdrəti və bunun fonunda maliyyə imkanlarının artması hər bir layihənin uğurlu sonluqla başa çatdırılmasını şərtləndirir. "Ağıllı kənd" və "Ağıllı şəhər" layihələrinin icrası müasir texnologiyaların və innovasiyaların tətbiqi əsasında sosial-iqtisadi xidmətin keyfiyyətini daha da yaxşılaşdıracaq. Şübhəsiz, bu layihələrin ilk olaraq işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilməsi ölkəmizin həmin əraziləri qısa zamanda bərpa edib soydaşlarımızın Böyük Qayıdışını təmin etmək istəyindən irəli gəlir. Artıq dövlətimizin başçısı İlham Əliyevin Zəngilan rayonuna səfəri çərçivəsində Ağalı kəndində "Ağıllı kənd" layihəsinin təməli qoyulub. Möhtərəm Prezidentimiz bu mühüm hadisə ilə Böyük Qayıdışın başlandığını bildirib."

"İki sahil" qəzetinin baş redaktoru bu məqamı da xüsusi qeyd edib ki, "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələri 2003-cü ildən başlayaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf proqramlarının uğurla reallaşdırılması nəticəsində paytaxt və bölgələr arasında fərqin aradan götürülməsinə böyük dəstək olacaq.

# "Erməni faşizmi yenidən baş qaldırarsa, bu zaman..."

**Təəssüflər olsun ki, 44 günlük Vətən müharibəsində məğlub olmasına rəğmən, Ermənistan yenə də təxribatçı cəhdlərdən əl çəkmək istəmir". Bu sözləri SİA-ya açıqlamasında hərbi ekspert Cəlil Xəlilov deyib.**

Onun sözlərinə görə, Ermənistanın diversiya cəhdləri və mina terrorunun qarşısını almağın ən effektiv yollarından biri heç şübhəsiz, beynəlxalq təşkilatları bu prosesə cəlb etmək, onların erməni cinayətlərinə adekvat reaksiya verməsini təmin etməkdir: "Təəssüflər olsun ki, 10 noyabr 2020-ci il bəyanatından 6 aydan çox müddət keçsə də, Ermənistan bu gün də minalanmış ərazilərin xəritəsini ölkəmizə verməkistəmir. Bununla yanaşı, erməni təxribatçıları bəzən əlverişsiz hava şəraitindən, mürəkkəb coğrafi relyefdən istifadə edərək Azərbaycan ərazisinə sızıb, mina basdırmağa cəhd edirlər. Hərbçilərimizin sayıqlığı sayəsində bu kimi halların qarşısı qətiyyətlə alınır".



Cəlil Xəlilov həmçinin qeyd edib ki, lakin bu təxribatları beynəlxalq təşkilatlar, o cümlədən dünyanın aparıcı dövlətləri də görməli, rəsmi Ermənistanı bu təxribatlardan çəkindirmək üçün əməli addımlar atmalıdırlar: "Bu addımlardan biri kimi Ermənistana iqtisadi-siyasi sanksiyaların tətbiq edilməsi effektiv olardı. Belə bir addım Ermənistanı təxribatlardan çəkindirmək, regionda sülhün və sabitliyin qorunmasını təmin etmək baxımından da faydalı olar. Digər baxımdan, ölkə başçısının da qeyd etdiyi kimi, "Dəmir yumruq" yerindədir və erməni faşizmi yenidən baş qaldırarsa, bu zaman Ermənistan ordumuz tərəfindən daha ölümcül zərbə və itkilərə məruz qalacaq. Bu baxımdan Ermənistanın yaxın tarixdəki məğlubiyyətindən dərs çıxarmasına ciddi ehtiyac var".

*Arzu Elsevərqızı*

# Şuşada üç tarixi məscid bərpa edilir



Heydər Əliyev Fondu Şuşada Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı məscidlərinin bərpa-təmir işlərini aparır. SİA-nın məlumatına görə, hər üç məscidin memarı Kərbəlayi Səfixan Qarabağidir və bu məscidlər ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələri siyahısındadır. Ermənistanın Şuşanı işğalda saxladığı dövrdə bir çox tarixi-mədəni abidələrlə yanaşı, bu məscidlər də vandalizmə məruz qalıb.

Yuxarı Gövhər ağa məscidinin interyeri məhv edilib, minarələrinin dekoru zədələnib, örtükləri və s. dağıdılıb. Sözügedən məscidin birinci mərhələdə bərpası başa çatıb, ikinci mərhələ üzrə bərpa işləri aparılır. Bu mərhələdə məscidin daşları ilkin layihəyə uyğun olaraq dəyişdirilir. Məscid ərazisində dağıdılmış mədrəsə də bərpa ediləcək. İşğal dövründə dağıntıya məruz qalan Aşağı Gövhər ağa məscidində isə xarici ekspertlərin iştirakı ilə qiymətləndirmə işləri aparılır.

Saatlı məhəlləsində yerləşən tarixi Saatlı məscidi Şuşa şəhəri Ermənistan tərəfindən işğal olunduqdan sonra xarabalığa çevrilib, dağıntılara məruz qalıb. Ekspertlər hazırda həmin məsciddə də mövcud vəziyyəti araşdırır.

# Şəhər mədəniyyəti və mədəniyyətsizlik

**Təmizliyə riayət edilməsinə, ələlxüsus paytaxtın küçələrində, parklarında və digər yerlərdə ətrafın zibillənməməsinə diqqətlə yanaşmaq lazımdır və bu məsələ hər zaman öz aktuallığını qoruyur. Nəzərə almaq lazımdır ki, bu, yəni təmizliyə riayət edilməsi bizim özümüz üçün vacibdir və bilavasitə bizim özümüzdən asılıdır. Bir sözlə, xüsusi inzibati tədbirlər, cəza tədbirləri, cərimələr olmadan belə özümüz təmizliyi qorumalı, hətta buna çox həssas yanaşmalıyıq.**






Doğrudur, Bakı dünyanın ən təmiz şəhərləri siyahısındadır və gün-gündən gözəlləşdiyi, abadlaşdığı da göz önündədir. Ümumiyyətlə, paytaxtda abadlıq işlərinin aparılması, təmizliyə nəzarət dövlətin diqqət mərkəzindədir və ən prioritet məsələlərdəndir. Əlbəttə ki, şəhərin təmizliyinin qorunması inzibati qaydalarla mühafizə olunur və ətraf mühitin çirkləndirilməsinə görə inzibati cəza tədbirləri, cərimələr də mövcuddur. Bununla yanaşı, inzibati qaydalar tətbiq olunmadan belə vətəndaşların, paytaxt sakinlərinin ətrafı zibilləməməsi, təmizliyi qorunması təqdirəlayiq hal hesab olunmalıdır. Əfsus ki, bəzən bunun əksini müşahidə edirik və zibil tullantılarına ara-sıra rast gəlinir.

Görünür, bəzi vətəndaşların, paytaxt sakinlərinin bu barədə, şəhərin təmizliyinin qorunmasının vacibliyi barədə maarifləndirilməsinə ehtiyac var və onlar bilməlidirlər ki, ətraf aləmi zibilləmək, çirkləndirmək olmaz. Məhz sakinlərin təmizliyə riayət etmələri, ətrafı çirkləndirməmələri, zibilləməmələri istiqamətində inzibati tədbirlərdən əlavə, hansısa işlərin, məsələn, maarifləndirmə tədbirlərinin əhəmiyyəti, rolu, bu istiqamətdə fəaliyyətlə əlaqədar Səs İnformasiya Agentliyi olaraq Bakı Şəhər İcra Hakimiyyətinə müraciət etdik. Bakı Şəhər Mənzil Komunal Təsərrüfat Departamentindən bildirildi ki, şəhərin təmizliyi hər zaman diqqət mərkəzindədir.

"Bununla əlaqədar səhər saatlarından etibarən komunal xidmətləri əməkdaşları gün ərzində mütəmadi olaraq qrafikə əsasən şəhərin bütün ərazisində təmizlik işləri görürlər. Lakin, onların işində müəyyən çətinliklər, problemlər də yaranır. Bu da bizim vətəndaşlarımız tərəfindən yaradılır. Çümki, zibil qutuları olmasına baxmayaraq, tullantıları, zibilləri hara gəldi atırlar ki, bu da şəhərin çirklənməsinə səbəb olur. Məsələn, atılan selofan torbaları külək qaldırır və tullantılar bütün ətrafa dağılır.

Zibillərin yığılması və utilizasiya edilməsi sahəsində işləri daha da genişləndirmək məqsədi ilə Bakı Şəhər Mənzil Komunal Təsərrüfat Departamenti ilə Böyük Britaniyanın "Mott MacDonald" şirkəti arasında 2019-cu ildə müqavilə imzalanıb və pilot layihə kimi Nərimanov rayonu götürülüb. Həmin bu şirkətin hazırladığı layihə əsasında Nərimanov rayonunda məişət tullantılarının yığılması, çeşidlənməsi və utilizasiya üçün göndərilməsi prosesi həyata keçirilir. Bunun üçün yeni məişət kontenerləri alınıb. Həmin məişət kontenerləri plastik materialdan olsa da çox davamlı, dözümlü bir materialdandır. Məişət tullantıları üçün nəzərdə tutulan kontenerlərin ağzı germetik qaydada bağlanılır. Bu ağzı bağlı kontenerlər həm ayaqla, həm də əllə açılan kontenerlərdir və bunlar da güclü külək vaxtı məişət tullantılarının, onların pis qoxularının əraziyə yayılmasının qarşısını alır. Gündəlik olaraq vətəndaşlar tərəfindən atılmış, çeşidlənmiş məişət tullantıları ayrıca, narıncı rəngdə kontenerlərə yığılır və narıncı rəngdə xüsusi nişanlanmış avtomobillər, cənab Prezidentin ayırdığı vəsait hesabına alınan 57 ədəd Bakı şəhəri üzrə məişət texnikası vasitəsi ilə daşınır.

Vətəndaşlarımızdan da xahişimiz odur ki, şəhərimizin gözəlləşməsi, təmizlənməsində öz əməklərini əsirgəməsinlər, bu işlərdə iştirak eləsinlər, şəhəri çirklənməyə qoymasınlar, harda gəldi tullantıları atmasınlar. Ümumilikdə, bunlar hamısı bizim şəhərimizin gözəlləşməsində və xaricdən gələn qonaqlarda, digər insanlarda şəhərimiz barəsində yaxşı təəssürat yaranmasında böyük rol oynayır. Onlar da bizim şəhərin təmizliyini görüb, qoy



gedib bunu təbliğ eləsinlər", deyə qurumdan məlumat verildi.

Təmizliyə riayət olunmasının, şəhərin çirkləndirilməməsinin vacibliyinə münasibətlərini öyrənmək üçün sakinlərə də müraciət etdik. Paytaxt sakini, Şair-Publisist Fəxri Müslim ilə söhbət etdik və həmsöhbətimiz vurğuladı ki, hər necə olur-olsun təmizlik qorunmalı, ətraf zibillənməməlidir.

"Əvvəllər zibil qabları bir qədər çox idi, amma indi bir qədər azalıb və kimsə oturduğu yerdən durub zibil qabına yaxınlaşmalı, zibili də ora atmalıdır ki, ola bilsin, bəziləri buna görə tənbəllik edirlər. Amma, əlbəttə ki, hər necə olur-olsun təmizlik qorunmalı, ətraf zibillənməməlidir.

Biz gənclərimizdən çox razıyıq və əgər belə gənclik olmasaydı biz müharibədə qələbə çalmazdıq. O soyuqda, çətin şəraitdə sinəsini qabağa verib torpaqlarımızın azad edilməsində gənclərimizin əvəzsiz rolu oldu. Gəncliyimiz çox layiqlidir və heç şübhəsiz ki, onlar normalara, qaydalara riayət edərək ətrafı zibilləməkdən çəkinməlidirlər.

Ətraf aləmi zibilləməmə məsələsində ailə tərbiyəsi çox önəmlidir. Əlbəttə ki, ictimai mühitin də rolu var və insanların düşdükləri mühitin də təsiri danılmazdır. Əgər kiminsə ailə tərbiyəsində, eləcə də düşdüyü mühitdə qüsurlar varsa, bu zaman ətrafını zibilləmək kimi xoşagəlməz hallara yol verəcək. Ailə tərbiyəsi, məktəb tərbiyəsi, cəmiyyətdə görülən tərbiyə böyük şeydir və insanın düşdüyü mühitdən çox şey asılıdır. Tövsiyyəm isə ondan ibarətdir ki, insanlar aldıqları tərbiyədən, tədrisdən, təhsildən, gördükləri cəmiyyətdən bəhrələnsinlər", deyə Şair-Publisist Fəxri Müslim öz tövsiyyələrini əsirgəməyib.

Digər bir şəhər sakini, Rauf Ələkbərov isə giley-güzar etdi və insanlar tərəfindən təmizliyə riayət edilməməsinə, bəzilərinin ətrafı zibilləməsinə görə şikayətləndi.

"Şəhərdə, küçələrdə, parklarda insanların gəzdikləri, oturduqları, istirahət etdikləri yerləri zibilləməsinə, yerə zibil atmasına mən çox pis baxıram. İnsanlarda etika, tərbiyə olmalıdır. Bəzən görürsən ki, kimsə istifadə etdiyi hər nə isə onun boş qalan qabını yerə atıb. Hətta siqaret kötüklərini belə kimlərinsə yerə atdığının da şahidi oluruq. İstər yaşlı olsun, istərsə də cavan, fərqi yoxdur, belə etmək, zibilləmək olmaz.

Məsləhətim isə ondan ibarətdir ki, insanlar zibilləri zibil qutularına atsınlar. Zibillərini zibil qutularına atan insanlara baxıb digərləri də bundan öyüd götürsünlər, onlar da belə etsinlər. Onlardan qeyri-adi heç nə tələb olunmur və adi normativ qaydalara, etik qaydalara riayət etsinlər, şəhəri zibilləməsinlər", deyə Rauf Ələkbərov məsələyə öz münasibətini bildirib.

Paytaxtımızın qadın sakini Solmaz Səfərova əvvəlki dövrlə hazırki vəziyyəti müqaisə etdi və nizam-intizam qaydalarına, etik normalara riayət etməyin vacibliyini dilə gətirdi.

"Biz Sovetlər vaxtında yaşamışıq və heç zaman küçəyə, parka zibil atmamışıq. Nizam-intizam hər şey deməkdir. Hər adamın daxilindən gəlməlidir ki, bunu etmək, zibil atmaq olmaz. Amma, indi zamanə bir qədər fərqlidir. Mən görürəm ki, bəzən heç də nizam-intizama riayət olunmur, zibil atılır, insanlar tərəfindən öz oturduqları, gəzdikləri yerlər çirkləndirilir.



Qaydalara riayət etmək, zibilləməmək, təmizliyi qorumaq kimi davranışlar ailə tərbiyəsindən də asılıdır. Ailələrdə böyüklər öz övladlarına bunu başa salmalıdır, əgər onlar bunu başa düşmürlərsə. Təmizliyin qorunmasına riayət edilməsində həm ailə tərbiyəsinin böyük rolu var, həm də insanlar təmizliyə riayət edənlərdən nümunə götürməlidirlər", deyə Solmaz Səfərova şəhərin küçələrini, parklarını, digər yerlərini zibilləyən bəzi insanları şərt şəkildə tənqid etdi.

Digər bir gənc müsahibimiz, Elxan Şahalıyev, şəhəri öz evimiz bilib, onu təmiz saxlamalı olduğumuzu dedi.

"İnzibati tədbirlərdən əlavə, yəni, zibili bura atsaq cərimə olunacağıq, deyə yox, bu şəhəri öz evimiz bilərək, təmizliyə riayət etməliyik. Söhbət təkcə gənclərdən getmir. Hansı yaşda olmasından asılı olmayaraq, bəzi insanlar oturduqları yeri zibilləyirlər ki, belə olmasa, təbii ki, daha yaxşı olar. Eyni zamanda, nəinki siqaret kötüklərini hara oldu atmaq, ümumiyyətlə, harda gəldi siqaret çəkmək də olmaz. Heç şübhəsiz ki, siqaret çəkilməsi üçün də xüsusi yerlər var və zibil qabları olan yerlərdə çəkilməsi daha məqsədəuyğundur.

Ümumiyyətlə, hər birimiz şəhərin zibillənməməsi üçün əlimizdən gələni etməliyik. Ətraf mühiti, təbiəti korlamamaq lazımdır. Xüsusən də məlum virusun, koronavirusun mövcud olduğu bir dövrdə təmizliyə, sanitariya qaydalarına riayət edilməli, çirklənmənin qarşısının alınması üçün hər birimiz səy göstərməliyik", deyə paytaxtın gənc sakini Elxan Şahalıyev fikirlərini bildirib.

Təmizliyin qorunması, şəhərin küçələrinin çirklənməsinin qarşısının alınmasının məhz inzibati yollarla, inzibati cəza tədbirləri, cərimələrlə deyil, daha fərqli bir şəkildə mümkünlüyü barədə media eksperti Azər Həsrət maraqlı bir yanaşma ortaya qoydu və vurğuladı ki, nəzakətli dildən istifadə daha təsirli üsuldur. Onun sözlərinə görə, bəzi ölkələrdə, məsələn, Türkiyədə bu şəkildə nəzakətli dildən istifadə edilir və yasaq deyil, məhz xatırlatmalar edilərək, insanlar təmizliyi qorumağa, ətrafı zibilləməməyə sövq edilir.

"Tək Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində, hətta bəzən çox inkişaf etmiş Avropa ölkələrində belə ətraf mühitin zibillənməsi ciddi olan bir problemdir. Həqiqətən də ətraf mühitin zibillənməsi, çirkləndirilməsi, özəlliklə də şəhər yerlərində küçələrin çirkləndirilməsi müşahidə edilir və bu çox ağrılı prosesdir. Düzdür, insanların hamısının tərbiyə, ədəb, əxlaq, davranış səviyyəsi yüksək deyil. Əlbəttə ki, kimlərsə, hardasa, nə isə edə bilər və buna, hətta mən deyərdim ki, bəzən anlayışla yanaşmaq mümkündür. Lakin, ümumilikdə götürəndə, insanların böyük əksəriyyəti əgər öz yeridiyi küçəyə zibil atırsa, özünün istirahət etdiyi parka zibil atırsa, özünün çimdiyi dənizə çirkab suları axıdırsa, oranı zibilləyirsə, bu artıq həmin insanların ümumiyyətlə, mahiyyəti ilə bağlı suallar doğurur.

Bəzən mən özüm də müşahidə edirəm ki, bir də görürsən, Bakının tən ortasında, çox bahalı maşından qalstuklu, geyim-keçimli birisi düşür, köşkdən bir siqaret alır, siqaret qutusunun üzərindəki təbəqəni açır,



əli ilə küçəyə atır və yoluna davam edir. Yaxud, eyni cür adam görürsən ki, maşınla gedir, siqaret çəkir, çəkdiyi siqareti maşının şüşəsini açaraq küçəyə tullayır. Bax, bu sualın cavabını tapmaqda mən çətinlik çəkirəm, lakin, illər öncə də bununla bağlı yazmışdım. Bu, sadəcə olaraq, mədəni səviyyəsi şəhərə uyğun olmayan, ümumyaşayış məkanına uyğun olmayan, lakin həddən artıq varlanmış adamlardır. Onlar

# Şəhər mədəniyyəti və mədəniyyətsizlik

pis örnəkdirlər. Həmin pis örnəyi də özəlliklə yetişməkdə olan nəsil mənimsəyir, uşaqlar düşünürlər ki, o cür geyim-keçimli, bahalı maşında gəzən birisi bunu edirsə, biz niyə etməməliyik. Onlar da eyni pis örnəyi mənimsəyirlər. Bunun qarşısını necə almaq olar?

Bəli, inzibati cəzalar, cərimələr, tənzimləmələr öz yerində, birincisi, nəzakətli dil məsələsini həll etmək lazımdır. Soruşa bilərsiz ki, dilin zibilə nə dəxli var? Çox dəxli var. Baxın, biz yazırıq ki, burada siqaret çəkmək qadağandır. Məsələn, Türkiyə kimi qardaş ölkədə, "burada siqara içilməz" yazırlar. Qadağandır yox, sadəcə xatırladılır ki, burada siqaret çəkilmir. Bu, artıq nisbətən nəzakətli bir şəkildə deyildiyinə görə, istər-istəməz insana təsirini müsbət yöndə tamam başqa cür göstərə bilir. Yaxud da ki, biz məsələn, nə olsa da yazırıq ki, qadağandır, olmaz və hələ altından bir nida işarəsi də qoyuruq. Təbii ki, bu kobud, qeyri-nəzakətli ifadə tərzi istər-istəməz qarşıdakında qıcıq doğurur, üsyankarlığa çağırır və adam da bunun qarşılığında siqaret də çəkir, küçəyə də tullayır. Ona görə də bu dildən başlamaq lazımdır. Nəyi isə yasaqlayırıqsa, bunun yasaq olduğunu xatırlatmalı deyilik, sadəcə, xatırlatmalıyıq ki,burada bu iş edilmir.

Bununla yanaşı, həm məktəbə qədər ailədə, həm məktəbdə tərbiyə yüksək səviyyədə təşkil edilməlidir. Yəni, insan düşünməlidir ki, bu zibil atdığım küçədə özüm yeriyirəm, öz ayağımın altına atıram axı zibili. Bunu düşünəcək beyni olan adam heç zaman küçəyə zibil atmaz, ətraf mühiti korlamaz.

Bununla bərabər, ümumiyyətlə düşünürəm ki, şəhər mədəniyyəti deyilən şey elə bir şeydir, onu insanlar birnəfəsə mənimsəyə bilmirlər. Xüsusən də gəlmələr. Yəni, o gəlmələrin bunu mənimsəyə bilməsi üçün bəlli mərhələlərin keçilməsi lazımdır. O baxımdan, əlbəttə ki, vəziyyəti düzəldə bilərik. Yeri gəlmişkən deyim ki, Bakı dünyanın ən təmiz şəhərləri sırasındadır, baxmayaraq ki, biz ara-sıra bu söhbətləri də edirik. Amma, istənilən halda biz düşünürük ki, böyük bir küçə tər-təmizdir, orada hardasa, səkidə bir siqaret kötüyü varsa, bu artıq zibillənmiş küçədir. Yəni, bu da baş verməməlidir. Adamlara bu cür maarifləndirici, tərbiyəvi müsbət təsir edəcək yöndən yanaşmaq lazımdır. O zaman düşünürəm ki, bir var, "siqaret çəkmək qadağandır", yazasan, bir də var, yazasan ki, "biz burada siqaret çəkmirik". Yəni, bu fərqli şeylərdir və anlayanlar üçün çox, hətta o "qadağandır" ifadəsindən daha sərt bir xəbərdarlıqdır. Çünki, adama bir növ hardasa, məsuliyyət yüklənir ki, yəni biz çəkmirik, sən də qanmaz olma və sən də çəkmə. Amma, sərt şəkildə qadağandır deyəndə adam həmin qadağaları sərt şəkildə ayaqlar altına almağı düşünə bilər", deyə Azər Həsrət maraqlı, yeni bir yanaşma və hətta təklif ortaya qoyub.



Həqiqətən də insanların, ölkə vətəndaşlarının, şəhər sakinlərinin özləri öz məkanlarını qorumaları, mühafizə etmələri, təmiz saxlamaları inzibati tədbirlər, cəza tədbirləri olmadan belə mümkündür. Yəni, hər bir vətəndaş, hər bir sakin ayrı-ayrılıqda normativ qaydalara riayət edərsə, əlavə tədbirlərə ehtiyac belə qalmaz. Əvvəla, bunun etik davranış normalarına, ədəb qaydalarına və digər tərbiyəvi davranışlara aid olduğunu hər kəs dərk etdiyi, qəbul etdiyi təqdirdə, təmizliyin məhz elə hər kəs tərəfindən qorunacağı zərrə qədər şübhə doğurmur. Məhz bu baxımdan, hesab edirik ki, sakinlərin təmizliyə riayət etməsinin etik normalara, ədəb qaydalarına və digər əxlaq normalarına aid olduğunun onlara xatırladılması, media ekspertinin yanaşması ilə desək, nəzakətli dillə çatdırılması istər-istəməz insanlara təsirini müsbət yöndə göstərə bilər.

Digər tərəfdən, nəzərə alsaq ki, özləri tərəfindən zibillənmiş parklarda insanların, sakinlərin elə özləri istirahət edirlər, deməli, təmizliyi qorumaqda insanlar özləri də maraqlı olmalı olduqlarını, bunun onların özlərinə lazım olduğunu dərk etməlidirlər. Zibil atdığı küçədə məhz həm də özünün yeridiyini, bu zibilin onun öz ayağının altında qalacağını dərk edən insan heç zaman bunu etməz, ətrafı zibilləməz, əksinə təmiz saxlayar. Bəli, məhz dərk edən insan. Görünür, dərk etməyənlər üçün bunun xatırladılması lazım gəlir.

***İnam Hacıyev***

# Zəngəzur dəhlizi Azərbaycanla Türkiyə arasında birbaşa əlaqəni təmin edəcək, bütün türk dünyasını birləşdirəcək

*YAP Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynovanın yap.org.az-a müsahibəsi*

***- Sevinc xanım, Azərbaycan-Türkiyə münasibətlərinin hazırkı səviyyəsini necə dəyərləndirirsiniz?***

- Azərbaycanın dost və qardaş ölkə olan Türkiyə ilə bütün sahələrdə əlaqələri ən yüksək zirvədədir. Bildiyiniz kimi, Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa edərkən onu ilk tanıyan dövlət Türkiyə oldu. Bu gün iki qardaş ölkə arasındakı münasibətlər möhkəm təməllərə əsaslanır. Hazırda münasibətlərimiz böyük öndər Mustafa Kamal Atatürkün dediyi "Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir" və Ümummilli Liderimiz Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" fəlsəfəsinə uyğun olaraq inkişaf edir.

Tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək strateji tərəfdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim möhkəmlənməkdədir. Dövlətlərimiz arasındakı münasibətlər bu gün hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq daha yüksək səviyyəyə çatmaqda, bir sıra sahələr üzrə isə keyfiyyətcə yeni müstəviyə keçməkdədir.

Vətən müharibəsi zamanı Türkiyə dövlətinin və onun Prezidentinin Azərbaycana göstərdiyi mənəvi və siyasi dəstək sözün həqiqi mənasında təmənnasız qardaşlığın təntənəsi idi. Vətən müharibəsi dövründə Türkiyənin bütün dövlət strukturları Azərbaycanın qələbəsi üçün bütün sferalarda böyük əzmkarlıq göstərdilər. Nə qədər beynəlxalq təzyiqlər olsa da, Türkiyə qardaşlıq dəstəyi mövqeyindən geri çəkilmədi. Bu amil bizim qardaşlığımızın sarsılmazlığını ifadə edir.

***- Azərbaycan-Türkiyə əlaqələrinin belə bir yüksək səviyyəyə çatmasında hər iki ölkənin rəhbərlərinin rolu xüsusi vurğulanmalıdır. Bu barədə nə deyərdiniz?***

- Təbii ki, bu amil müstəsna əhəmiyyət kəsb edir. Azərbaycan-Türkiyə qardaşlığı və əməkdaşlığının bütün sahələr üzrə davamlı inkişaf etdirilməsinə nail olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Resublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dövlətlərarası səviyyədə olduğu kimi, şəxsi münasibətlərdə də əsl qardaşlıq nümayiş etdirmələri olduqca dəyərlidir. Prezident İlham Əliyev müxtəlif beynəlxalq tədbirlərdə həmişə qardaş ölkəyə birmənalı dəstək verməyin əsl örnəyini nümayiş etdirib. Bir neçə il öncə Şərq Tərəfdaşlığı sammitində Ermənistan prezidentinin əsassız iddialarına cavab olaraq cənab İlham Əliyevin "Türkiyə burda təmsil olunmur, amma mən varam" deyərək qarşı tərəfi susdurması Azərbaycan və Türkiyə cəmiyyətində çox yüksək qarşılandı.



Ümumiyyətlə, möhtərəm Prezidentimiz Azərbaycan-Türkiyə münasibətlərini dünya üçün nümunə adlandırıb. Dövlətimizin başçısı qeyd edib ki, Türkiyə-Azərbaycan dostluğu sarsılmazdır, əbədidir. Eyni zamanda, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib ki, bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır.

Bütövlükdə, cənab İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın birliyi və həmrəyliyi, dövlət başçılarının bir-birinə "qardaşım" deyərək müraciət etmələri xalqlarımız üçün də, dünya birliyi üçün də nümunədir.

***- Azərbaycan öz torpaqlarını işğaldan azad etdikdən sonra regionda yeni əməkdaşlıq imkanları yaranıb. İki qardaş ölkə bu istiqamətdə önəmli təşəbbüslərlə çıxış edir...***

- İki qardaş ölkənin iqtisadi münasibətləri çox geniş sferanı əhatə edir. Burada enerji sahəsində də əməkdaşlıq mühüm rol oynayır. Türkiyə ilə Azərbaycan arasında qaz satışı və nəqli ilə bağlı bütün məsələlər razılaşdırılıb. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin istifadəyə verilməsi Azərbaycanın, Türkiyənin və digər ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində müstəsna rol oynayır.

Digər tərəfdən, Azərbaycan torpaqlarının erməni işğalından azad edilməsi və bu ərazilərdə quruculuq işlərinin həyata keçirilməsi Azərbaycanla Türkiyənin münasibətlərində də vacib yer tutur. Bilirsiniz ki, quruculuq işlərində Türkiyə şirkətləri fəal iştirak edir. Ölkəmiz işğal altında olan ərazilərini azad etməklə təkcə özü üçün deyil, bütün region üçün yeni inkişaf imkanları yaradıb. Ona görə də, erməni tərəfi reallığı düzgün qiymətləndirməli, revanşist addımlardan uzaq olmalı, əməkdaşlıq təşəbbüslərinə qoşulmalıdır.

Əlbəttə ki, ölkəmiz artıq çox mühüm təşəbbüslərlə çıxış edib. Bu, xüsusən də, kommunikasiyaların açılması ilə bağlıdır. Bu layihənin həyata keçirilməsi ilə bağlı iş artıq başlayıb, Ağbənd-Horadiz yolunun tikintisi aparılır. 40 kilometrlik Zəngəzur dəhlizinin yaradılmasından sonra Naxçıvanın Azərbaycanın əsas hissəsi ilə əlaqəsi bərpa olunacaq. Zəngəzur dəhlizi Azərbaycanla Türkiyə arasında birbaşa əlaqəni təmin edəcək, bütün türk dünyasını birləşdirəcək. Bütövlükdə, kommunikasiya xətləri açıldıqdan sonra bütün region ölkələri üçün yeni imkanlar yaranacaq. Burada yenə də əsas söz sahibi Azərbaycanla Türkiyə olacaq.

***- Azərbaycanla Türkiyə arasında siyasi münasibətlərin inkişafında hər iki ölkənin hakim partiyaları nə dərəcədə rol oynayır?***

- Azərbaycanla Türkiyənin yeni dönəmdə siyasi münasibətlərinin inkişafında hər iki ölkənin hakim partiyalarının əlaqələri də böyük rol oynayır. Yeni Azərbaycan Partiyası (YAP) ilə Ədalət və İnkişaf Partiyası (AKP) arasında əməkdaşlığın genişləndirilməsi tərəflər üçün olduqca faydalıdır.

Azərbaycanla Türkiyənin siyasi müstəvidə də əməkdaşlığı yeni mərhələyə qədəm qoyub. Bir məqamı qeyd edim ki, belə bir ənənə yaranıb ki, hər iki ölkədə keçirilən seçkilərindən sonra ilk rəsmi səfərlər məhz qardaş ölkəyə edilir. Vətən müharibəsindən bir neçə ay sonra YAP-ın növbəti qurultayı keçirildi. Və qurultaydan sonra partiyamızın nümayəndə heyətinin ilk rəsmi səfəri qardaş Türkiyəyə oldu. Belə ki, 1-3 iyun tarixlərində YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətimizin Türkiyəyə səfəri və səfər zamanı keçirilən görüşlər ölkələrimiz və partiyalarımız arasında siyasi münasibətlərin daha da möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Səfər zamanı YAP nümayəndə heyəti Türkiyə Prezidenti, Ədalət və İnkişaf Partiyasının Sədri Rəcəb Tayyib Ərdoğanla, AKP Sədrinin birinci müavini Numan Kurtulmuşla, Sədrin müavini, Türkiyənin sabiq baş naziri Binəli Yıldırımla, AKP Sədrinin beynəlxalq məsələlər üzrə müavini Əfqan Ala ilə, Türkiyə Böyük Millət Məclisinin Sədr müavini Süreyya Sadi Bilgiç ilə görüşlər keçirdi. Eyni zamanda, hər iki partiya arasında əməkdaşlığa dair niyyət protokolu imzalandı. Təcrübədə partiyalarımızın arasında ilk dəfədir ki, belə bir sənəd imzalanır.

Əməkdaşlığa dair imzalanmış niyyət protokolu partiyalararası təcrübənin öyrənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edə bilər. Niyyət protokolunun əsas konturları müəyyən edilib. Burada əsas məsələ məhz hazırda dövlətlərimizin və partiyalarımızın rəhbərlərinin qurduğu münasibətlərin cəmiyyətlərimizdə daha da dərinləşməsidir. Həmçinin, bu sənəd siyasi platformalarda, beynəlxalq təşkilatlar çərçivəsində hər iki partiyanın nümayəndələrinin birgə fəaliyyətləri üzrə koordinasiyanın yaradılmasına təkan verəcək, sosial layihələrin işlənib hazırlanmasına, milli ideologiyanın inkişafına, dövlət sektoru, QHT-lər, bələdiyyələr səviyyəsində əlaqələrin daha da dərinləşməsinə imkan yaradacaq. Eləcə də, uğurlu təcrübə mübadiləsi, dostluq və qardaşlıq münasibətləri partiyalar səviyyəsində də inkişaf edəcək. Bir sözlə, siyasi münasibətlərin yeni bir səviyyəyə yüksəldilməsi nəzərdə tutulur və görülən bu işlərin hamısı xalqlarımızın gələcəyinə xidmət edəcək.

# "Azərbaycan Heydər Əliyev ideyaları işığında yüksək zirvələr fəth edəcək"

***- Eldəniz müəllim, 15 İyun Müstəqil Azərbaycanın Qurtuluş Günüdür. Bu tarixi günlə bağlı nə deyə bilərsiniz?***

- Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan elə günlər vardır ki, həmin günlərdə onun gələcək həyatını müəyyən edən böyük başlanğıcların əsası qoyulub. Müxtəlif tarixi hadisələrlə əlamətdar olan belə günlərdən ən önəmlisi 1993-cü ilin 15 iyun günüdür. Tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş bu gün Onu qiymətləndirənlər, dərindən dərk edənlər üçün çox əzizdir. Milli Qurtuluş Günü sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. Vətənini, xalqını sevən, həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələri gözləri ilə görən insanlar üçün 15 iyun əsl qurtuluş tarixi, Azərbaycan xalqının ölüm-dirim mübarizəsinin tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqına arxa, dayaq olan bir insan - Heydər Əlirza oğlu Əliyevdir. 1991-ci ilin oktyabrında Azərbaycan müstəqillik əldə etdi. Lakin müstəqilliyin ilk illəri siyasi hakimiyyət boşluğu və dövlətin əsaslarının, ordu və dövlət təhlükəsizliyi orqanları da daxil olmaqla, dövlətin bütün təsisatlarının boşluğu ilə əlamətdar idi. Ermənistanın ilhaqçılıq niyyəti güdən təcavüzü respublikada vəziyyəti daha da gərginləşdirirdi.

***- Ulu Öndərin Naxçıvana gəlməsi və Ali Məclisin sədri seçilməsi barədə nə deyə bilərsiniz?***

- Vətənin ağır dövründə Moskvada istefa verdikdən sonra 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri kimi bu diyarın xilası yolunda fədakarlıq nümunələri göstərən Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdı. Belə bir məqamda isə yalnız bir çıxış yolu var idi. Bu çıxış yolu görkəmli siyasi və dövlət xadimi, Naxçıvan Muxtar Respublikasının Ali Məclisin Sədri, Yeni Azərbaycan Partiyasının Sədri Heydər Əliyevin Bakıya dəvət olunmasından ibarət idi. Azərbaycan dövlətçiliyinin gələcəyindən narahatçılıq keçirən ziyalılar Ulu Öndər Heydər Əliyevə müraciət etdilər. Azərbaycan ziyalıları, o cümlədən, sadə insanlar Ümummilli Liderə müraciətlər edirdilər, ölkədə yaranan siyasi gərginliyin aradan qaldırılması üçün Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsinin vacibliyini qeyd edirdilər. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Beləliklə, 15 iyun Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu. Ulu Öndər Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi



*Müsahibimiz Milli Məclisin deputatı Eldəniz Səlimovdur.*

böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Həmin il "olum, ya ölüm" ayrıcında qalmış Azərbaycan Ümummilli Lider Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrildi. 1993-cü il oktyabrın 3-də Ümummilli Lider xalqımızın böyük əksəriyyəti tərəfindən Prezident seçildi. Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, dünyada Azərbaycanın nüfuzu daha da artır. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi inkişaf dövlətimizin möhkəmlənməsində, sivil dünyaya sıx inteqrasiya prosesinə qoşulmasında və xalqımızın strateji mənafelərini təmin edən modern cəmiyyətin qurulmasında həlledici rol oynadı. Beləliklə, bu mühüm tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi həkk oldu və 1997-ci ildən etibarən parlamentin qərarı ilə rəsmi bayram kimi qeyd edilir. Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Əgər müstəqilliyi qazanmaq ilkin şərt idisə, ikinci vacib məsələ onu qoruyub inkişaf etdirmək idi. Bu, Ümummilli Liderin iradəsi sayəsində reallığa çevrildi. Ulu Öndər Heydər Əliyev milli dövlətçiliyimizin konsepsiyasını yaratdı. Bütün maneələrə baxmayaraq ən qısa müddətdə ölkədə ictimai-siyasi sabitlik bərpa olundu. Müstəqil, hüquqi-demokratik dövlət quruculuğuna başlanıldı. Milli qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması, cəmiyyətin demokratikləşdirilməsi, insan hüquq və azadlıqlarının qorunması sahəsində səmərəli tədbirlər həyata keçirildi. Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz sosial-iqtisadi, siyasi və mənəvi tədbirlərin nəticəsi kimi, bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir olan nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmağa başlandı, digər tərəfdən, bütün siyasi və diplomatik vasitələrin işə salınması ilə 1994-cü ilin may ayında həyati əhəmiyyət kəsb edən atəşkəs əldə edildi. Atəşkəsin həyati əhəmiyyəti onda idi ki, məhz bu müqavilədən sonra ölkəmizin dünya birliyinə inteqrasiyası sürətləndi, öz iqtisadi potensialından səmərəli istifadə edərək dünya bazarına daxil olmağa şərait yaradan beynəlxalq müqavilələr, razılaşmalar və s. əldə edildi.

***- Ölkəmiz tezliklə vahid Avropa ailəsinə qəbul edilməsi və dünyanın tanınmış neft şirkətləri ilə "Əsrin müqaviləsi" və digər kontraktlar imzalanması barədə nə deyə bilərsiniz?***

- Dahi Öndərin hakimiyyətə qayıışı ilə bütün sahələrdə islahatlar başlandı. Azərbaycana investisiya axınının əsası qoyuldu. Müstəqil Azərbaycanın yeni Konstitusiyası qəbul edildi. Ölkənin ali qanunvericilik orqanına, yerli idarəetmə orqanlarına beynəlxalq müşahidəçilərin iştirakı ilə azad və demokratik seçkilər keçirildi. Görkəmli dövlət xadimi, bütün türk dünyasının ən nadir tarixi simalarından sayılan Heydər Əliyevin rəhbərliyi ilə respublikamız qədim İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi qlobal layihələrin fəal iştirakçısına və təşəbbüskarına çevrildi. Həyatın bütün sahələrində tərəqqi və dirçəliş baş verdi. Ulu Öndər Heydər Əliyev dühasının xidmətləri olan bu nailiyyətlər Azərbaycan xalqının müstəqilliyini məhv olmaqdan qurtardı və bu müstəqilliyi daimi, əbədi, sarsılmaz, dönməz etdi. Bütün bunlar 1993-cü il 15 iyunun tarixi nailiyyətləridir. Bəli, 1993-cü ilin 15 iyun günü xalqımızın mübarizələrlə dolu yeni tarixinə yeni eranın başlanğıcı kimi daxil oldu. Məhz bu yeni dövr Azərbaycanın XXI əsrə hüquqi, demokratik dövlət kimi daxil olmasına əsaslı təminat yaratdı. Respublikanın qarşısında duran problemlər mərhələlərlə həll olundu, əmin-amanlıq, siyasi sabitlik yarandı. İctimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatda əsaslı dönüş başlandı, xalqımızın bütövlüyü, həmrəyliyi, milli birliyi təmin edildi. Ötən illər ərzində Azərbaycan böyük inkişaf yolu keçib. Ölkəmizin inkişaf strategiyası məhz Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilib. Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur.

***- Bugünkü Azərbaycan Ulu Öndər Heydər Əliyevin görmək istədiyi Azərbaycan olduğunu demək olarmı?***

- Qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Bu günün fövqündən baxanda Azərbaycanın gələcəyi daha işıqlı və firavan görünür. Çünki müstəqil Azərbaycanın idarəçilik sükanı Ulu Öndər Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyevin əlindədir. Prezident İlham Əliyevin bu siyasəti uğurla həyata keçirməsi nəticəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib, ötən dövr ərzində möhtəşəm iqtisadi uğurlara imza atılıb. Bunu təkcə Azərbaycan vətəndaşları deyil, bütün dünya təsdiq edir. Azərbaycana gələn hər bir şəxs ölkəmizdə gedən inkişafa heyran qalır. Bu gün xalqımız əmindir ki, müstəqil Azərbaycan Ulu Öndər Heydər Əliyev ideyaları işığında Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələr fəth edəcək. Ümummilli Lider Heydər Əliyevin yenilməz iradəsi, uzaqgörənliyi, fədakarlığı onu bütün dünya azərbaycanlılarının lideri edib, ömür yolu doğma Vətənə xidmət nümunəsinə çevrilib. Bütün şüurlu həyatını canından artıq sevdiyi xalqına, ölkəsinə həsr etmiş bu müdrik siyasi və dövlət xadimi tariximizdə müstəqilliyimizin memarı və qurucusu kimi yer tutub. Ümummilli Lider Heydər Əliyev fenomeninə məxsus iti zəka, müdriklik, uzaqgörənlik və əzmkarlıq ona əvəzsiz ümummilli lider mövqeyi qazandırıb. Çoxşaxəli və zəngin fəaliyyəti, misilsiz insani keyfiyyətləri sayəsində o, zəmanəmizin əbədiyaşar dahisinə çevrilib. Azərbaycan xalqı haqlı olaraq Ulu Öndər Heydər Əliyev irsini müstəqilliyinin təminatçısı kimi qəbul edir. Qədirbilən xalqımız böyük xilaskarının xidmətlərini unutmur və 15 İyun - Milli Qurtuluş Gününü hər il yüksək əhval-ruhiyyə ilə qeyd edir.

***Gülyana***

# "Ciddi bir problem və narazılıq yoxdur"

"İmtahanların gedişatı ilə bağlı ümumi olaraq onu qeyd edə bilərəm ki, ilk növbədə imtahan verənlərin təhlükəsizlik məsələsi öndədir. Digər tərəfdən, bu istiqamətdə Dövlət İmtahan Mərkəzi və Təhsil Nazirliyi həm imtahan verənlərin maarifləndirilməsi, həm bütövlükdə gigiyena qaydalarına riayət olunması, imtahan keçirilən ərazilərin sanitar-epidemioloji vəziyyətə müvafiq olaraq hazırlanması və təsis edilməsi ilə bağlı bütün lazım olan işlər həyata keçirilib. Əminəm ki, imtahan verənlərin sağlamlığının qorunması istiqamətində bütün lazımlı addımlar ən yüksək səviyyədə atılıb". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti İlqar Orucov deyib.

Onun sözlərinə görə, imtahan verənlərin biliyinin qiymətləndirilməsi ilə bağlı test suallarının tərtibi prosesində də pandemiya şə-



raiti nəzərə alınıb: "Bununla bağlı imtahan suallarında xeyli güzəştlər tətbiq olunur. Tədris olunan fənlərin proqram mövzularının mənimsənilməsinin pandemiya ilə əlaqədar olaraq, çətinliyi nəzərə alınaraq, suallarda müəyyən qədər güzəştlər olur. Təbii ki, bu güzəştlər maksimum səviyyədə ola bilməz".

Ekspert sözlərinə belə davam edib: "Biz təkcə imtahan verənlərin biliyinin qiymətləndirilməsi ilə deyil, eyni zamanda insanların müvafiq dövrdə pandemiya şəraitində həm sağlamlıqlarının qorunmasını nəzərə alaraq, həm də bütövlükdə insanların pandemiyanın təsiri ilə yaranmış psixoloji gərginliyini artırmamaq baxımından da düşünməliyik. Hesab edirəm ki, imtahan verənlər üçün müvafiq qurumlar lazımi işləri görür. Hələ ki, ciddi bir problem və narazılıq yoxdur. Ümid edirəm ki, yaxşı nəticələr görəcəyik".

***Ayşən Vəli***

# Yaşı 18-dən aşağı olanlar idman zallarına buraxılacaq?



"Bu gün TƏBİB-in və Operativ Qərargahın aidiyyatı açıqlamasından irəli gələn məsələləri nəzərə alaraq bir çox məkanlarda, iaşə obyektlərində, Mallarda, ibadət mərkəzlərində və idman zallarında yumşalmalara gedilib". Bu sözləri SİA-ya açıqlamasında Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov deyib.

Onun sözlərinə görə, açılımlar mövcuddur və yumşalmalar başlayaraq fəaliyyətə icazə verilib: "Bunu nəzərə alaraq Gənclər və İdman Nazirliyi, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi sahəsinə cavabdeh qurumlar, idman sahəsində fəaliyyət göstərən zallara dövlətin nəzdində olan və özəl sektorda fəaliyyət göstərən idman qurğularına, onların rəhbərlərinə Operativ Qərargahın tövsiyələri çatdırılıb".

Raqif Abbasov həmçinin qeyd edib ki, sanitar-epidemioloji vəziyyətə, şəxsi gigiyenaya, idman zallarının tez-tez havalandırılmasına, say tərkibinə riayət olunması, eyni zamanda yaşı 18-dən aşağı olanların testdən keçərək sənədlərin təqdim olunması, yaşı 18-dən yuxarı olanların isə vaksindən keçməsi tövsiyə olunub ki, bu da risklərdən sığortalanmaq məqsədilədir: "Ümidvarıq ki, bu tövsiyələr aidiyyatı şəxslər tərəfindən nəzərə alınacaq və Azərbaycan vətəndaşı üçün hər hansı bir risklər yaranmayacaq".

***Arzu Elsevərqızı***

# Strateji əməkdaşlıq, yoxsa strateji düşmənçilik?

*ABŞ demokratlarının məqsədini növbəti dəfə təhlil edərkən...*

**Adətən, siyasətçilər haqqında deyirlər ki, onlar bir şey fikirləşir, başqa şey deyir və tam fərqli hərəkət edirlər. Amma ABŞ-demokratlarının ya bu deyimdən xəbərləri yoxdur (bu, daha çox reallığa oxşayır), yaxud onlar ümumiyyətlə, siyasətçi deyillər. Belə ki, nə danışdıqlarını nə etdiklərini dərk etmirlər. Fakt budur ki, ABŞ-ın indiki administrasiyası reallıqdan tam uzaq addımlar atır və siyasət yürüdür, ancaq hər dəfəsində də ciddi iflasa uğrayır. Bütövlükdə, ABŞ-dakı son seçkiləri çoxsaylı şübhələr əsasında "qazanan" Co Bayden administrasiyasının artıq 6 aya yaxın müddətdəki fəaliyyətlərinə nəzər salsaq, uğurdan çox ciddi uğursuzluqları görə bilərik. Maraqlısı da budur ki, demokratların indiki nəslinin fəaliyyəti hər hansı tarixi uğurları ilə yadda qalmayıb...**






ABŞ-ın Ağ ev Administrasiyası, Dövlət Departamenti, Konqresi və s. dairələri hələ də dərk etməyiblər ki, Azərbaycan artıq qalib ölkədir, güclü siyasətçi tərəfindən idarə olunur, özünün müstəqil siyasətini aparır və heç bir təzyiqə əyilmir!

Misal üçün, demokratlar Barak Obamanın dövründə o qədər uğursuzluqlarla üzləşmişdilər ki, indi sözün əsl mənasında görməmiş kimi düşüblər bu dünyanın canına. Qəbul edə bilmirlər ki, dünya artıq 80-ci, 90-cı illərin dünyası deyil. Artıq yeni qüvvələr var, artıq meydana yeni güc mərkəzləri gəlib və bütün bu reallıqları qəbul etmədən köhnə siyasətlə nəyəsə nail olmaq mümkün olmayacaq.

Əslində, çox da dərinə getmədən deyə bilərik ki, demokratların "köhnə hamam, köhnə tas" siyasətinin Azərbaycana qarşı yönəldilmiş və əsl siyasi müharibə elementlərini əks etdirən fəaliyyəti artıq bütün mümkün sərhədləri aşır. ABŞ-ın Ağ ev Administrasiyası, Dövlət Departamenti, Konqresi və s. dairələri hələ də dərk etməyiblər ki, Azərbaycan artıq qalib ölkədir, güclü siyasətçi tərəfindən idarə olunur, özünün müstəqil siyasətini aparır və heç bir təzyiqə əyilmir!

Görünür, sözdə demokratlar caməəsi 90-cı illərdə olduğu kimi, ya Azərbaycanı zəif hesab edirlər, daha doğrusu güclü olduğunu etiraf etmək istəmirlər, ya da Ermənistan kimi marionet kvazidövlətlə səhv salırlar. Xeyr, çox hörmətsiz amerikalı demokratlar, bu, heç də sizin düşündüyünüz kimi deyil!

### Sanki Bayden administrasiyasının seçki vədlərinin əsas müddəalarından biri də bu imiş...

SİA olaraq son vaxtlar ölkəmizə qarşı atılan qərəzli addımlar, əsassız siyasi hücumlar, ardıcıl təzyiqlər və onların kimlər tərəfindən edilməsi haqqında mütamadi, faktlara, dəlillərə, sübutlara söykənən materiallarla çıxış edirik. USAİD-in ermənipərəst rəhbəri Samanta Pouer, amerikalı demokrat konqresmen Bred Şerman, vitse-prezident Kamala Haris, Blinkenin özü, Filip Riker və digərlərinin işləri-gücləri sanki bizim ölkəyə qarşı qarayaxma kampaniyaları aparmaqdan ibarətdir. Sanki Bayden administrasiyasının seçki vədlərinin əsas müddəalarından biri də bu imiş...

Nəhayət, 2022-ci il üçün Bayden administrasiyasının xarici siyasət və prioritetlərinə dair dinləmələrdə Bob Menendes adlı bir ermənipərəst ləyaqətsiz bu dəfə Blinkeni ittiham edərək bəyanat verib ki, 907 düzəlişin ləğvi Azərbaycanın həddini aşması (?!) ilə nəticələnib. Üstəlik iddia edib ki, Azərbaycan Dağlıq Qarabağın (?!) və Ermənistanın sərhədlərini pozub və s...

### Bəs nə oldu Blinken..?

Yəni Blinken 907-ci düzəlişin qismən aradan qaldırılması üçün müəyyən dərəcədə fəaliyyət göstərib, amma bunu heç də Azərbaycana olan məhəbbətindən, sevgisindən etməyib, yəqin ki, şəxsi, fərdi umacağı olub. Fəqət, yanılıb. Ona görə də Medendesin sərsəm bəyanatından sonra bildirib ki, yenidən bu məsələyə baxacaqlar, filan-behman...

Link burda: https://www.youtube.com/watch?v=W-ZB6ZthIbk

Nə oldu Blinken, bəs bizim Prezidentə zəng edib deyirdin ki, strateji dostuq, o səbəbdən dayandırırıq 907-ci düzəlişi? "Duxun" çatmadı eyni fikri Konqresdəki ermənipərəst taylarına bəyan edəsən? Ancaq etiraflar etmən yerinə, zənciri əlində olan tulan Rikeri göndərirsən bura ki, o Bakıda "strateji tərəfdaşlıq" ifadəsi işlətsin, özün isə Konqresdə çıxış edib Menendes kimi alçaqların fikirlərini müsbət rəy verirsən?!

Bu saxta demokratların qanları sanki yalanla, riya ilə, mənəviyyatsızlıq və ləyaqətsizlik sindromları ilə yoğrulub. Buna isə ümumiyyətlə, "strateji tərəfdaşlıq" demək olmaz, bu artıq strateji düşməncilik, yumşaq ifadə edərsək, əks-cinahçılıqdır və həmin saxta demokratlar anlamalıdırlar ki, belə riyakar hərəkətləri cavabsız qalmayacaq.

***Rövşən RƏSULOV***

***P.S. Çox hörmətsiz amerikalı saxta demokratlar, götürün öz "demokratik" dəyərsizliklərinizi və bəlli maraqlarınızla qapını arxanızca bağlayın. Bizə hörmət qoymayana biz dünəndən hörmət qoymuruq, bu qədər bəsit və sadə!***

REZUME

## "Əgər hamı peyvənd olunsa,..."



"İlk növbədə onu qeyd edim ki, çox sevindirici haldır ki, artıq son zamanlar koronavirusa yoluxanların sayında ciddi azalma var. Sağalanların sayı isə yoluxanlardan dəfələrlə çoxdur. Eləcə də, həyatını itirənlərin sayında azalma öz əksini tapıb. Əlbəttə, bütün bunlar hamısı ölkədə koronavirusa qarşı ilk gündən aparılan tədbirlərin nəticəsidir. Çünki, cənab Prezident İlham Əliyev ilk yoluxan xəstə qeyd olunan vaxtdan koronavirusa qarşı ehtiyyat tədbirləri gördürüb. Məhz bunların nəticəsidir ki, bu gün ÜST-ün də qeyd etdiyi kimi, Azərbaycanda bu xəstəliyə qarşı mübarizə yüksək səviyyədədir". Bu sözləri SİA-ya açıqlamasında deputat Kamilə Əliyeva deyib.

Onun sözlərinə görə, bu gün sevindirici haldır ki, Müstəqil Dövlətlər Birliyi arasında Azərbaycan vaksinasiya ilə əlaqədar ilk sıralardadır: "Bu da cənab Prezident İlham Əliyev tərəfindən aparılan tədbirlərin nəticəsində baş verir. Baxmayaraq ki, bir sıra digər inkişaf etmiş Avropa ölkələri hələ bu peyvəndi almamışdı, amma Azərbaycan peyvəndin alınmasında da ilk dövlətlərdən olub. Eləcə də, bu il yanvar ayının 18-dən Azərbaycanda vaksinasiya başlanılıb. Bütün bu yoluxmaların azalması uğurlu addımların nəticəsidir".

Kamilə Əliyeva sözlərinə belə davam edib: "Vaksinasiya könüllülük prinsipi ilə olsa da, çox sürətli gedir. İnsanlar arasında təbliğat işlərinin aparılması Azərbaycanda peyvəndləmə işlərinin sürətlənməsinə səbəb olub. Dünya şöhrətli inkişaf etmiş ölkələr belə vaksinasiya məsələsində bu uğuru qazana bilməyiblər. Hətta orada peyvənd problemi də var. Lakin, Azərbaycanda dövlət başçısının səyi və şəxsi nüfuzu sayəsində biz bu peyvəndləri zamanında almış olduq. Onun nəticəsidir ki, artıq may ayının sonundan xeyli yumşalmalar olub. Yeganə insanları narahat edən toy və yas məsələləridir ki, düşünürəm toyların da müəyyən qaydalar və say çərçivəsində keçirilməsi müzakirə olunacaq. Bu məsələ insanları çox maraqlandırır və yaxın vaxtlarda öz həllini tapacağına ümid edirəm. İnsanlar yumşalmalara əsaslanıb ehtiyyatı əldən verməməlidirlər. Əgər, qaydalara riayət olunmasa əvvəlki yoluxma vəziyyəti geri qayıda bilər. Qapalı şəraitdə mütləq maska taxmalı və digər gigiyenik qaydalara riayət etməliyik. Peyvənd olunmayanlar da mütləq şəkildə bunu etməlidirlər ki, ölkədə vəziyyət sabit olaraq qalsın".

***Ayşən Vəli***

## <u>Rusiyalı deputat:</u> "Ermənistanda bir çoxları hələ də Qərbdən kömək umur və qisas almağı xəyal edir"



İyunun 4-də Azərbaycanın işğaldan azad edilmiş Kəlbəcər rayonunda peşə vəzifələrini yerinə yetirərkən jurnalistlərin olduğu bir maşın erməni tərəfinin qurduğu minaya düşərək partladı. Nəticədə 3 nəfər - AzTV telekanalının operatoru Sirac Abışov, AzərTAc informasiya agentliyinin əməkdaşı Məhərrəm İbrahimov, Kəlbəcər rayon İcra Hakimiyyətinin Susuzluq kəndinin kəndinin inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyev həlak oldu. Dörd nəfər isə müxtəlif dərəcəli ağır yaralandı və xəstəxanaya yerləşdirildi.

Rusiya Dövlət Dumasının deputatı Aleksey Juravlyov "Moskva-Bakı" portalına Ermənistanın insanların ölümünə səbəb olan minalanmış ərazilərin xəritələrini Azərbaycana niyə təqdim etməməsi və bunun dayandırılmasına dair fikirlərini bildirib: "Öldürülən jurnalistlərin ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı vermək istəyirəm! Qaynar nöqtələrdə işləmək hər zaman təhlükəlidir, ən layiqli və cəsarətli insanlar bunu öz üzərinə götürürlər. Və hamımız bilirik ki, rəsmi sülhün başlaması ilə qaynar nöqtələrin təhlükəsi heç bir yerdə yox olmur. Bu torpaqları nifrət, müharibə və minalarla zəhərləyənlər buna görə məsuliyyət daşıyırlar.

İrəvanın hələ də Bakıya minalanmış ərazilərin xəritəsini təqdim etməməsi Ermənistan tərəfinin məsələləri həll etmək istəmədiyini açıq şəkildə göstərir. Deyirlər, biz sülh tərəfdarıyıq, bəli, müqavilələr imzaladılar, amma hələ konkret hərəkətlər yoxdur. Və dinc insanlar həlak olur, necə ki, bu, Azərbaycan jurnalistləri ilə faciəli şəkildə baş verdi. Və orada yerli sakinləri, qadınları və uşaqları partlatmaq olar... Sülh prosesi başladıqdan sonra İrəvanın etməsi lazım olan ilk şey mina yerləşdiyi yerlər barədə Bakını məlumatlandırmaq və bu ərazilərin təhlükəsizliyinə kömək etmək, istehkamçılarını göndərmək idi.

Niyə İrəvan ərazilərin təmizlənməsinə və nəqliyyat marşrutlarının blokdan çıxarılmasına töhfə vermir? Çünki orada hələ çoxları Qərbdən kömək umurlar. Xarici ölkələrin onlara kömək edəcəyini deyirlər! Və hərbi intiqam almağı xəyal edirlər. Ermənistan hökuməti daxilindəki bu dağıdıcı qüvvələr, sadəcə, Dağlıq Qarabağda sülhməramlı prosesin inkişafını təxrib edir, təsadüfi faciələrə, qəfil toqquşmalara və digər hadisələrə səbəb olur. Erməni siyasətində bu qərbyönümlü, anti-Azərbaycan və anti-rus paradiqma hökm sürdüyü müddətdə, İrəvanın günahından Dağlıq Qarabağda həyatın normallaşması prosesi qaçılmaz olacaqdır".

***Tərcümə: Elçin***

# Erkən nikah, yoxsa erkən köləlik?

*Erkən nikah hallarına Aran, Gəncə-Qazax, Lənkəran iqtisadi rayonlarında daha tez- tez rast gəlinir*

Statistikaya görə, indiyədək dünya miqyasında 650 milyondan çox qadın uşaq yaşlarında evliliyə sövq edilib. Hər il ən azı 12 milyon qız 18 yaşına çatmadan evlənir və ya buna məcbur edilir. Bu isə hər dəqiqədə 28 qızın erkən nikaha daxil olması deməkdir. UNICEF-in (United Nations International Children's Emergency Fund) məlumatına görə, ən zəif inkişaf etmiş ölkələrdə bu rəqəm iki dəfə artıqdır. Orada qızların 40% -i 18 yaşından, 12% -i isə hətta 15 yaşından əvvəl ərə verilir. Bu təcrübə xüsusilə münaqişələrdən əziyyət çəkin ölkələrdə və humanitar böhran şəraitində olanlarda daha çox müşahidə edilməkdədir. Bu baxımdan mütəxəssislər ən çox Cənubi Asiya və Afrikanın Sahara bölgəsini qeyd edirlər.



Təəssüflər olsun ki, həyata keçirilən tədbirlərə baxmayaraq, erkən nikah halları hələ də digər ölkələrdə olduğu kimi, Azərbaycanda da mövcuddur və cəmiyyətimizdə narahatlığa səbəb olan problemdir. Erkən nikah hallarına Aran, Gəncə-Qazax, Lənkəran iqtisadi rayonlarında daha tez-tez rast gəlmək olar.



Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin "Ailə Problemləri" şöbəsinin müdir müavini Kamilə Əliyeva mövzu ilə bağlı "İki sahil"ə açıqlamasında bildirdi ki, bütün dünyada olduğu kimi, Azərbaycanda da cəmiyyətimizi narahat edən məsələlərdən biri erkən nikah hallarının baş verməsidir: "Erkən nikah hallarının qarşısının alınmasına dair mütəmadi olaraq həm qanunvericiliyin təkmilləşdirilməsi, yeni sənədlərin hazırlanması və qəbul edilməsi, həmçinin əhalinin, xüsusilə yeniyetmə və gənclərin, valideynlərin erkən nikahın fəsadları barədə məlumatlandırılması istiqamətində tədbirlər həyata keçirilir". Müsahibimiz "Nikah bağlayan tərəflər buna məcbur edilərsə qanunvericiliyə görə, hansı tədbirlər nəzərdə tutulub" sualımıza cavabında vurğuladı ki, Azərbaycan Respublikasının Ailə Məcəlləsində qızlar üçün minimal nikah yaşı 17-dən 18-ə qaldırılıb, habelə, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nikah yaşına çatmayan qadını nikaha məcbur etməyə görə cinayət məsuliyyəti müəyyən edilib.

Bilavasitə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, eləcə də bu qurumun nəzdində fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək mərkəzlərinin erkən nikahın qarşısının alınması istiqamətində gördüyü işlər, həyata keçirdiyi layihələr barədə söz açan müsahibimiz söylədi ki, yeniyetmə və gənclərin, valideynlərin erkən nikahın mənfi nəticələrinə dair "Sağlam həyat naminə erkən nikaha YOX deyək" layihəsi, Səhiyyə Nazirliyi ilə birgə və Təhsil Nazirliyinin dəstəyi ilə Bakı şəhərində və regionlarda yerləşən ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrində "Erkən nikah və reproduktiv sağlamlıq" mövzusunda görüşlər keçirilib. Bunlardan əlavə "Sağlam həyat naminə erkən nikaha YOX deyək" adlı yaddaş vərəqəsi və digər maarifləndirici vəsaitlər nəşr edilərək əhali arasında paylanılıb. Həmçinin "Erkən nikah - uşaqlığımızı əlimizdən almayın",



"Erkən nikah-uşaq evliliyi" və s. adlı sosial çarxlar hazırlanaraq rəsmi saytlar və sosial şəbəkələr vasitəsilə yayımlanıb.

Bütün sadalananların fonunda son 10 il ərzində erkən nikahların sayında azalmanın müşahidə olunduğunu qeyd edən Kamilə Əliyeva söylədi ki, əgər 2011-ci ildə nikahları qeydə alınmış 18 yaşadək qızların sayı 5138 idisə, 2020-ci ildə bu rəqəm 165-ə enib.

Həmsöhbətimiz vurğuladı ki, təkcə dövlət tərəfindən görülən işlərlə erkən nikah hallarının qarşısının alınması mümkün deyil: "Bu problemin həllində ictimaiyyətin bütün təbəqələrinin, həm dövlət qurumlarının və qeyri-hökumət təşkilatlarının, həm də cəmiyyətin bütün üzvlərinin fəal iştirakı vacibdir. Bununla əlaqədar, belə hallarla üzləşən şəxslərə Dövlət Komitəsinin elektron ünvanına, "Facebook" səhifəsinə və ya Komitə yanında fəaliyyət göstərən gender-əsaslı zorakılıqla bağlı qaynar xəttə (860) müraciət etmək tövsiyə edilir".

Erkən nikahların yeniyetmələrdə yaratdığı psixoloji travmalarla bağlı klinik- psixoloq Nuriyyə Quliyevanın da fikirlərini öyrəndik. Həmsöhbətimiz bildirdi ki, XXI əsrdə yaşamağımıza baxmayaraq təəssüflər olsun ki, hələ də erkən nikahlara yol verilir: " Bəzən ailələrin böyükləri - ağsaqqallar və ağbirçəklər də belə nikahlara razılıq verirlər. Əksər gənclər, yeniyetmələr nə fiziki, nə də fizioloji baxımdan nikaha hazırdılar. Fizioloji olaraq dəyən zərərlərin, fəsadların tibbi tərəfləri də var. Lakin mən psixoloji tərəflərinə toxunmaq istəyirəm. 14-15 yaşında insan hələ yetkinliyə keçid dövrünü yaşayır. Erkən nikaha sövq edilənlərin böyük əksəriyyəti hələ uşaqlıq dövrünü başa vurmurlar. Belə olan halda təbii ki, həmin şəxslərdə psixoloji problemlər yaranacaq. Çünki hələ onların maraqları öz yaşıdları ilə ünsiyyət qurmaqdır, dostları, rəfiqələri, sinif yoldaşları ilə hansısa nailiyyətlərini bölüşməkdir. Psixoloji cəhətdən evliliyə hazır olmayan insana bu cür ağır məsuliyyət yüklənilir. Ev, ailə bir müddət sonra körpə qayğılar və 14, 15 yaşlı özü hələ uşaq olan şəxs bunların öhdəsindən gəlməlidir, bu yükü qaldırmalıdır. Yeniyetmənin böyük ailəni idarə edərək, fərdinə qulluq etməsi belə o yaşda özü-özlüyündə travmadır". Müsahibimiz xanımların 23 yaşdan əvvəl nikaha daxil olmalarını tövsiyə etmir. Nuriyyə Quliyeva söylədi ki, psixoloji baxımdan evlilik yaşı oğlanlarda 25 yaşdan sonra daha idealdır: "Çünki kişi həm də ailənin başçısıdır və onun iqtisadi baxımdan ailəni idarə etməsi üçün əvvəlcə müəyyən qədər özünü təsdiq etməsi vacibdir".

***Günel Eyyubova***

## DTX: Ermənistan vətəndaşlarından ibarət terrorçu silahlı birləşmənin daha 26 üzvü barəsində cinayət işi məhkəməyə göndərilib

Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən ötən il dekabrın 13-də keçirilmiş anti-terror əməliyyatı nəticəsində tərksilah edilmiş Ermənistan Respublikasının vətəndaşları olan silahlı dəstələrin üzvləri barəsində DTX-nin İstintaq Baş idarəsində başlanmış cinayət işi üzrə ibtidai istintaq yekunlaşıb.

Baş Prokurorluğun və DTX-nin mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilib ki, istintaq nəticəsində cinayətkar silahlı birləşmələrin üzvlərinin 2020-ci il noyabrın 26-27-də Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq mütəşəkkil dəstə halında keçməklə Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik və digər ərazilərində döyüş mövqeləri tutaraq dekabrın 13-dək olan müddətdə ölkə ərazisində yerləşən müəssisə, idarə, təşkilatlara, habelə ayrı-ayrı şəxslərə silahlı basqınlar etdikləri, ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, Azərbaycan Respublikasının dövlət hakimiyyət orqanları və beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və digər terror əməlləri törətdikləri müəyyənləşdirilib.



Məlumat verildiyi kimi, silahlı dəstənin əvvəlcə 14, sonra isə daha 13 üzvü barəsində cinayət işinin istintaqı yekunlaşdırılaraq təsdiq edilmiş ittiham aktı ilə birlikdə baxılması üçün məhkəməyə göndərilib.

Sadalanan faktlarla bağlı qanunsuz silahlı birləşmənin digər üzvlərinin - Mikaelyan Andranik Vazgenoviç, Soğomonyan Setrak Samveloviç, Karapetyan Rafik Robertoviç və qeyriləri də daxil olmaqla, ümumilikdə daha 26 təqsirləndirilən şəxsin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214.2.1-ci, 214.2.3-cü (terrorçuluq, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə törədildikdə), 228.3-cü (mütəşəkkil dəstə tərəfindən qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, saxlama, daşıma və gəzdirmə), 279.2-ci (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların tərkibində müəssisələrə, idarələrə, təşkilatlara və ya ayrı-ayrı şəxslərə basqın etmə) və 318.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunmalarına dair cinayət işinin istintaqı yekunlaşdırılaraq Azərbaycan Respublikasının Baş prokurorunun müavini tərəfindən təsdiq edilmiş ittiham aktı ilə birlikdə baxılması üçün məhkəməyə göndərilib.

## Ermənistanda ilk toqquşma başladı: Paşinyanla Koçaryan tərəfdarları arasında qarşıdurma olub



Ermənistanının Gümrü şəhərində baş nazir vəzifələrini icra edən Nikol Paşinyanla sabiq prezident Robert Koçaryanın tərəfdarları arasında toqquşma baş verib. SİA erməni KİV-lərinə istinadən xəbər verir kiməlumatına görə, insident N.Paşinyanın "Vətəndaş müqaviləsi" partiyasının seçki kampaniyası zamanı qeydə alınıb.

Tərəflər arasında sözlü mübahisə kütləvi davaya çevrilib. Bundan başqa, Ararat vilayətində Demokrat partiyasının rəsmiləri seçicilərlə görüş zamanı polis tərəfindən saxlanılıb. Qeyd edək ki, Ermənistanda parlament seçkiləri iyunun 20-də keçiriləcək.

## Qlobal istiləşmə yenidən dünya gündəmində



Dünya Meteoroloji Təşkilatı xəbərdarlıq edib ki, yaxın beş il ərzində Paris iqlim razılaşması ilə qarşısı alınmağa çalışılan istilik həddinin müvəqqəti aşma ehtimalı 40 faiz yüksəlib. SİA xarici KİV-lər istinadən xəbər verir ki, bu nisbət 2020-ci ilə olan proqnozla müqayisədə iki dəfə artıb. Keçən il bunun baş vermə ehtimalının 20 faiz olduğu bildirilmişdi. DMT-nin yaxın illər üçün yeni proqnozunda "illik orta qlobal temperaturun yaxın beş ildən ən az birində müvəqqəti sənaye səviyyəsindən 1,5 dərəcə yuxarı qalxma ehtimalı olduğu bildirilib.

***Aysel Məmmədova***

# Ermənistan vətəndaş müharibəsinin astanasındadır

*Paşinyan qələbə çalsa, eks-prezidentlər Koçaryanla Sarkisyanın həbsi qaçılmazdır*

**Ermənistan hakimiyyətində istefalar dalğası daha da böyüyür. Artıq bir neçə nazirin istefasından sonra ötən həftə xarici işlər naziri vəzifəsini icra edən Ara Ayvazyan da istefa verib. O cümlədən mayın 31-də Ermənistanın xarici işlər nazirinin bütün müavinləri və XİN-in mətbuat katibi Anna Naqdalyan da istefa verdiklərini açıqlayıblar. Artıq Ermənistan XİN-də ciddi səlahiyyət sahibi tapmaq mümkün deyil.**

Bəli, bu gün Ermənistanda istefalar ona görə ardıcıllıqla davam edir ki, bu ölkə Azərbaycanla 44 günlük müharibədə ağır məğlubiyyətə uğradı. Ermənistanın baş naziri vəzifəsini icra edən Nikol Paşinyan Lori əyalətinin Spitak şəhərində tərəfdarları ilə görüşündə də bu məğlubiyyəti açıq şəkildə etiraf edib: "Şübhəsiz, biz müharibəni uduzduq və bu məğlubiyyətə görə məsuliyyət daşıyırıq, amma biz insanların gözlərinə baxmaq haqqını saxladıq."



Göründüyü kimi, Ermənistanda iyunun 20-də keçiriləcək növbədənkənar parlament seçkiləri öncəsi daxili vəziyyət daha da gərginləşib. Artıq 2 gündür ki, təbliğat kampaniyası başlayıb. Bu kampaniya zamanı həm Paşinyan, həm də müxalifət, o cümlədən "Qarabağ klanı" hakimiyyətə hərisliklərini göstərirlər. Parlament seçkilərində bəzi siyasi partiyalar Nikol Paşinyana qarşı birləşməyə çalışır. Onlar Paşinyanı satqın, türk agenti adlandırmaqla bərabər, müharibədə həlak olan erməni hərbçilərinin meyitlərinin soyuducu vaqonlarda gizlədilməsini xalqına qarşı cinayət hesab edirlər. Qeyd edək ki, bu günlərdə İrəvanda itkin düşmüş hərbi qulluqçuların valideynlərinin etiraz aksiyaları keçirilir. İtkin düşən hərbçilərin valideynləri və yaxınları İrəvanın bəzi küçələrini bağlayıblar. Etirazçılar bildirirlər ki, hakimiyyət ötən müddət ərzində ölmüş hərbçilərin cəsədlərini soyuducularda saxlayıb.





Siyasi analitiklərin fikrincə, seçkilərdə "Qarabağ klanı"nın qalib gəlmək şansı sıfıra bərabərdir. Çünki erməni xalqı məğlubiyyətin səbəbini elə eks-prezidentlər Koçaryan və Sarkisyan hakimiyyətlərində tüğyan edən korrrupsiya və antidemokratik mühitdə görürlər.

Seçki kampaniyası zamanı həm Koçaryanı, həm də Paşinyanı bölgələrdə sıravi ermənilər də qəbul etmirlər. Hətta ötən günlərdə hər ikisini müxtəlif bölgələrdən qovaraq onları fərsiz, korrupsioner, erməni xalqının düşmənləri adlandırıblar.

İndiki dövrdə Paşinyan "Qarabağ klanı"na qarşı təkbaşına mübarizə aparır. Eks-prezidentlər Serj Sarkisyanın və Robert Koçaryanın Paşinyanın qələbə çalacağı təqdirdə həbs olunacaqları barədə ilkin ehtimallar da var. Çünki Paşinyan artıq Robert Koçaryanın "safarilərdəki" ov məcaralarını, Sarkisyanın kazinolarda külli miqdarda pullar uduzmasını cəmiyyətə bir cinayət hadisəsi kimi təqdim edir.

Bunun əvəzində isə Serj Sarkisyan Paşinyana 24 saat vaxt verib ki, əlindəki faktları ictimaiyyətə təqdim etməsə, onun ailəsi haqqında çox ciddi kompramatları və biabırçılıqları mətbuata ötürəcək. Görünən odur ki, seçki sonrası Ermənistanda vətəndaş müharibəsi qaçılmazdır.

Bu arada qeyd edək ki, Kreml Ermənistanda keçiriləcək seçkilərdə maraqlı tərəfdir. Bəzi analitiklərin fikrincə, Kreml rəhbərliyinə zəifləmiş Paşinyan lazımdır. Çünki kapitulyasiya sənədini o imzalayıb. Seçkilərdə başqa birinin hakimiyyətə gəlməsi və müharibənin yenidən başlanması Rusiyanın Qərbdəki nüfuzunu aşağı sala bilər.

Lakin o da faktdır ki, Ermənistanda hakimiyyətə kim gəlsə müstəqil siyasət yürüdə bilməyəcək. Çünki müstəqil siyasət yürütmək üçün Ermənistanın iqtisadiyyatı və ordusu güclü olmalıdır. Burada isə tam əksinədir və ölkə iflas həddinə yaxınlaşır. Bir sözlə, Ermənistandakı hakimiyyətlər həmişə xaricdən idarə olunublar. Müstəqil siyasət yürüdə bilməyən dövlət başçısı isə xalqını düşünə bilməz.

Hazırda Ermənistandakı mövcud vəziyyət dövləti daha da uçuruma aparır. Onların xilas yolu isə Türkiyə və Azərbaycan kimi inkişaf edən qonşu dövlətlərlə iqtisadi əməkdaşlıq qurmaq və revanşist əhval-ruhiyyədən əl çəkməkdir.

Ermənistanın sabiq prezidenti Levon Ter-Petrosyan həyəcan təbili çalaraq ölkəsini gözləyən təhlükələrdən danışıb. O deyib ki, Ermənistandakı vəziyyət vətəndaş müharibəsinə çevrilmək təhlükəsindədir, ölkəni kədərli günlər gözləyir.

Onun sözlərinə görə, seçkilər ərəfəsində əsas rəqiblər, baş nazir vəzifələrini icra edən Nikol Paşinyanla sabiq prezident Robert Koçaryan arasında kəskin ziddiyyət mövcuddur: "Bu düşmənçiliyin qarşısı alınmasa, baş verəcəkləri təsəvvür etmək belə dəhşətlidir. Hər iki tərəf ölüm-qalım məsələlərini həll edir."

Bu arada o da məlum olub ki, Ermənistan ordusunda da ciddi qarşıdurma mövcuddur. Hətta baş nazirin vəzifəsini icra edən Nikol Paşinyanın əmrləri generallar tərəfindən icra olunmur. Orduda bir qiyam əhval-ruhiyyəsi yaşanır. Yüksək zabit heyəti arasında ikitirəlik hökm sürür.

***Elçin Zaman***

# Erməni siyasətçilər Ermənistanda anarxiya yayırlar...

**Məlum olduğu kimi, artıq iyunun 7-dən başlayaraq Ermənistanda seçki kampaniyasının keçirilməsinə rəsmi olaraq start verilib. Beləliklə, iyunun 20-də erməni parlamentinə keçiriləcək erkən seçkilərdə iştirak etmək üçün artıq 22 partiya və 4 blok qeydiyyatdan keçib. Qeyd edək ki, sağlam olmayan seçkiöncəsi vəziyyət və kampaniyanın ibtidai qaydalarına riayət edilməməsi, bəzi erməni rəsmilərinin də dediyi kimi, əvvəldən də gözlənilən idi.**



Məsələn, bu gün bəzi seçkiyə qatılmayan erməni siyasətçiləri bunu müharibənin Ermənistanda yaratdığı obyektiv səbəblərlə əlaqələndirirlər. Yəni seçki nəticələrinin gözlənilməzliyi iştirakçıları söyüş, dedi-qodu və qarşılıqlı ittihamları qəbul etməyə sövq edir. Maraqlıdır ki, hazırda Ermənistanda bəziləri belə bir seçkiqabağı vəziyyət və ümumi atmosferi, bu seçkinin əvvəlkilərdən fərqli olaraq, ölkədə ən təhlükəli və gözlənilməz seçkilərə çevrilməsinə səbəb ola biləcəyini bildirirlər.

Məsələ bundadır ki, ölkədə yaranmış vəziyyəti dövlət strukturları tərəfindən nümayiş etdirilən imkansızlıq və iqtidarsızlıq daha da ağırlaşdırır. Təbii ki, indiki halda bura seçkilərin qanuni və ədalətli keçirilməsinə məsul olan qurumlar, deyək ki, hüquq-mühafizə orqanlarını, məhkəmələri, seçki komissiyalarını və hətta müşahidəçiləri də daxil etməliyik. Qəribəsi budur ki, bu gün söyüş, dedi-qodu və qarşılıqlı ittihamlarla müşahidə edilən seçki kampaniyalarına, bəzi istisnalarla, heç bir irad da bildirilmir. Yəqin ermənilərin əksəriyyəti bütün bu baş verənlərin sonradan, yəni seçkidən sonra Ermənistanda anarxiya mühitinin formalaşması üçün ciddi risklərə meydan yaradacağını anlamırlar. Yəni onlar, doğrudanmı, bu gün özlərini yeni müharibə reallığı da daxil olmaqla dağıdıcı proseslərin bir hissəsi kimi görmürlər? Təbii ki, bu bəzi ermənilərə görə elə də inandırıcı görünmür.

Xatırladaq ki, bir müddət bundan əvvəl həmvətənlərinin seçki kampaniyalarındakı təbliğat xarakterli çıxışlarından "narazı qalan" ermənilərin hüquq müdafiəçisi Arman Tatoyan "öz iradlarını" bildirmişdi. Budur, yenə "Freedom House" təşkilatı "sağ olsun", ombudsmanın çağırışına "dəstək" verib.

Belə ki, "nüfuzlu" təşkilat ombudsman Tatoyanın seçki dövründə erməni siyasətçilərinin şiddət və nifrət ritorikası ilə bağlı səsləndirdiyi narahat fikirlərinə "dəstək" nümayiş etdirib. Yəni narahatlığını bildirib.

Qeyd edək ki, təşkilat ermənilərə xəbərdarlıq edib ki, ay ermənilər, sizin bu əməlləriniz ölkədə dağıdıcı qütbləşmə və nifrətin yayılmasına kömək edir. Ona görə də, ombudsmanınızın sözlərinə qulaq asın, zorakılıq və nifrət ritorikasından əl çəkin.

...Yeri gəlmişkən, ötən gün seçki ilə bağlı sorğuda elə də bir nüfuzunun olmadığı ortaya qoyulan sabiq üçüncü erməni prezidenti Serj Sarkisyan alternativi Nikolun "atasını yandırmaq" üçün gözəl bir gediş edib. Belə ki, o, Nikolun "vətən"ini satan xainin biri olduğunu təsdiq edən kompromata, yəni lent yazısına malik olduğunu bəyan edib. Amma deyəsən, balacaboy sabiq burada da, qaş cəhənnəm, vurub gözünü çıxarıb. Çünki Serj əldə etdiyi lent yazısı vasitəsilə Paşinyanı müharibənin əsl günahkarı olaraq göstərmək cəhdində bulunması, sonradan onun özünü ifşa etməsinə gətirib çıxarıb.

...Deyirlər, Sarkisyanın bu uğursuz cəhdi Paşinyanın reytinqini xeyli qaldırıb.

***Ağasəf Babayev***

# Müdafiə Nazirliyi: "Ermənistan silahlı qüvvələri Kəlbəcər istiqamətində bölmələrimizə atəş açıb"



Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin Kəlbəcər istiqamətində bölmələrimizə atəş açması ilə bağlı məlumat yayıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilib: "Ermənistan Müdafiə nazirliyi Ermənistan-Azərbaycan dövlət sərhədinin Kəlbəcər rayonu istiqamətində yerləşən Azərbaycan Silahlı Qüvvələrinin bölmələrinə atəş açması barədə açıqlama yayıb.

Ermənistan silahlı qüvvələri tərəfindən Silahlı Qüvvələrimizin mövqelərinə atəş açılması faktı öz təsdiqini tapıb. Açılmış atəş nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti sırasında həlak olan və ya yaralanan yoxdur.

Bu fakt bir daha onu sübut edir ki, Ermənistan tərəfi seçki öncəsi qəsdən iki ölkənin dövlət sərhədi istiqamətində vəziyyəti gərginləşdirmək və hərbi təxribatlar törətmək siyasətini davam etdirir. Baş vermiş hadisəyə görə bütün məsuliyyət Ermənistan tərəfinin üzərinə düşür".

## "Ermənistanı yaxın gələcəkdə təhlükələr gözləyir"

**Ermənistanda seçkiqabağı siyasi gərginlik getdikcə daha da dərinləşməkdədir. Bu sözləri SİA-ya verdiyi açıqlamasında politoloq Ceyhun Əhmədli deyib. Politoloq qeyd edib ki, siyasi qüvvələrin bir-birlərinin ünvanına ağır ittihamlar irəli sürməsi mövcud vəziyyətin xaotikliyindən xəbər verir.**





"Ermənistan cəmiyyətində məyusluq və inamsızlıq ruhu hakimdir. Keçirilən rəy sorğuları onu göstərir ki, hələ də əhalinin böyük bir hissəsi heç bir siyasi qüvvəyə inanmır. Əlbəttə, bunun özü Ermənistanı yaxın gələcəkdə gözləyən təhlükələrdən xəbər verir.

Ümumiyyətlə, gedişat onu göstərir ki, Paşinyan seçkilərin nəticələrinə əsasən, təkbaşına hakimiyyət qura bilməyəcək. Böyük ehtimalla o, mandat qazanmış digər blok və partiyalarla koalisiyalı hökumət formalaşdırmağa cəhd edəcək. Rəy sorğuları onu deməyə əsas verir ki, Paşinyandan sonra ən çox reytinqi olan siyasi qüvvə Koçaryanın rəhbərlik etdiyi blokdur. Digər partiya və blokların reytinqinin çox aşağı olduğu müşahidə olunmaqdadır. Beləliklə, seçkilərin ikinci raundu elan olunmasa, Paşinyan Koçaryanla hakimiyyəti bölüşmək məcburiyyətində məcbur qala bilər. Əks halda ikinci tur elan olunacaq ki, bu da Ermənistanda böhran və xaosun daha da dərinləşməsinə gətirib çıxaracaq.



Sorğularda ortaya çıxan səs faizlərinə əsasən deyə bilərik ki, erməni cəmiyyətində siyasi qütbləşmə mövcuddur. Bir qütbdə Paşinyan, digərində isə Koçaryan dayanır. O da bir həqiqətdir ki, Paşinyanla Koçaryanın koalisiyalı hakimiyyəti dayanıqlı və uzunmüddətli ola bilməz. Bir sözlə, bu ssenari reallaşsa Ermənistanda ciddi hakimiyyət böhranının yaşanacağı qaçılmazdır.

Erməni xalqı hazırda pislərin içərisindən daha az pis olanı seçmək zərurəti qarşısındadır. Nə "demokratiya və insan haqları" şüarları ilə hakimiyyətə gələn Paşinyan, nə də bundan əvvəl ölkəni kriminal üsullarla idarə edən Koçaryan erməni xalqına nicat yolu vəd edə bilmir. Ermənilər də bunun fərqindədir. Ona görə də bütün sorğularda əhalinin böyük bir hissəsi heç bir siyasi qüvvəyə inanmadığını bildirir, ya da mövcud seçimlər qarşısında qərarsız olduğunu ifadə edir", - deyə politoloq Ceyhun Əhmədli bildirib.

*İnam Hacıyev*

## XƏBƏRDARLIQ: Bu cür dondurmaları yemək çox təhlükəlidir!



"Yay aylarında hər kəs dondurmalara üstünlük verir. İstehlakçılar bilməlidir ki, bu yüksək kalorili tez həll olunan süd məhsuludur". Bu sözləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib.

Onun sözlərinə görə, dondurma süd məhsulu olduğuna görə, onun yağlılığını artırmaq üçün yalnız kərə yağından istifadə olunmalıdır: "Bunu da bilməliyik ki, bitki əsaslı dondurmalar da var. Onların tərkibi bitki yağlarından hazırlanır. Bu cür dondurmaları dilin üzərinə qoyanda boğazda və ya dildə acılıq hiss olunursa deməli həmin dondurma kərə yağından yox, bitki yağından hazırlanıb. İstehlakçılar bükülmüş dondurma alırlarsa, onun bükülüş formasına fikir verməlidirlər. Əgər dondurmanın kağızı əzilibsə, bu o deməkdir ki, dondurma müəyyən tempuratura məruz qalıb, əzilib, əyirib və daha sonra təzdən dondurulub. Artıq bu çirklənmiş dondurma hesab olunur. Bu cür dondurmalar çox təhlükəlidir".

Eyyub Hüseynov həmçinin qeyd edib ki, xüsusilə xaricdən gətirilən dondurmalarda ciddi problemlər var: "Əhali bilməlidir ki, dondurmalar bərk və yumşaq olur. Bərk dondurmalar adətən bükülmüş formada olur. Onun üzərinə buraxılma tarixi, saxlanılma müddəti və s. olur. Yumşaq dondurmalar isə bitonlarda olur və adətən açıq şəkildə satılır. Ümumiyyətlə, istehlakçılar bir dəfəyə 200-300 qramdan artıq dondurmanı yeməyi məsləhət görmürəm. Çünki bədən tempuraturu bir anda aşağı düşə bilər və insan hətta ölümcül vəziyyətə düşə bilər. Xüsusən, meyvəli dondurmalarda ehtiyatlı olmaq lazımdır. Burada zəhərlənmələr teztez müşahidə oluna bilər. Bir sözlə dondurma temperatura məruz qalıb, əriyib təzdən dondurulubsa həmin dondurma çirklənmiş dondurmadır və bu cür dondurmanı almaqdan tam imtina etmək lazımdır".

*Arzu Elsevərqızı*

## Bakcell şəbəkəsi Şuşada!



Bakcell mobil şəbəkəsinin əhatə dairəsi artıq qədim Şuşa şəhərinə qədər genişləndi. İşğaldan azad olunmuş torpaqlarımızda aparılan bərpa işlərində daha bir addım: Bakcell şirkətinin texniki personalı Qarabağda şəbəkənin qurulmasını davam etdirir və Bakcell şəbəkəsi artıq Şuşa şəhərini də əhatə edir.

"Bakcell"in 2G, 3G və 4G baza stansiyaları artıq Şuşada və Cıdır düzündə, Cəbrayıl rayonunda, Hadrut qəsəbəsi də daxil olmaqla Xocavənddə də quraşdırılıb. Bakcell Qarabağda şəbəkənin əhatə dairəsinin genişləndirilməsi və yüksək keyfiyyətli xidmətlərin təmin edilməsinə yönəlmiş genişmiqyaslı işlərini davam etdirəcək. Qeyd edək ki, Bakcell şəbəkəsi müstəqil mobil bençmarkinq təşkilatları tərəfindən 3 il ardıcıl olaraq "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adlandırılıb.

## "Nar" işğaldan azad edilmiş ərazilərdə şəbəkəsini genişləndirməyə davam edir

İşğaldan azad edilmiş ərazilərdə öz şəbəkəsini genişləndirməkdə olan "Nar" Şuşada da baza stansiyalarını işə salıb. Bununla da mədəniyyət paytaxtımız müasir və daimi "Nar" şəbəkəsi ilə əhatə olunub. 2G, 3G və 4G texnologiyalı baza stansiyalarının quraşdırılması ilə "Nar" istifadəçiləri Şuşada keyfiyyətli və kəsintisiz səsli zəng və internet xidmətindən yararlana biləcəklər.

Qeyd edək ki, "Nar" işğaldan azad edilmiş Xocavənd və Cəbrayılda da baza stansiyalarını quraşdırıb. Mobil operator işğaldan azd edilmiş digər ərazilərin də keyfiyyətli şəbəkə infrastrukturu ilə təmin edilməsi istiqamətində işlərini davam etdirir. Qeyd edək ki, "Nar" Vətən müharibəsi nəticəsində işğaldan azad edilmiş ərazilərin şəbəkə ilə əhatə olunmasına xüsusi önəm verir.

Xatırladaq ki, 44 günlük Vətən müharibəsi dövründə "Nar" səyyar baza stansiyaları vasitəsilə işğaldan azad edilmiş əraziləri mobil rabitə ilə təmin edirdi.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 90%-ni əhatə edir və 8740-dan artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.




# "Post and Courier" qəzeti:

## Azərbaycanı dəstəkləyək

***Amerikanın "Post and Courier" qəzetində "Azərbaycanı dəstəkləyək!" sərlövhəli məqalə dərc olunub. Məqalədə Azərbaycan Respublikasının 103-cü ildönümünü Amerika qanunvericilərinin Azərbaycan Milli Günü kimi qəbul etməsinə çağırış edilir.***


E-PAPER OBITUARIES NEWSLETTERS BUY & SELL MY ACCOUNT SUBSCRIBE LOGIN

Support Azerbaijan day

NATION & WORLD
US sanctions NATO ally Turkey over Russian missile defense
BY MATTHEW LEE ASSOCIATED PRESS

Please consider adopting a proclamation, citation or resolution to celebrate May 28 as the Azerbaijan National Day.

May 28 marks the 102nd anniversary of the establishment of the Azerbaijan Democratic Republic.

As the world's first predominantly Muslim secular parliamentary democracy, Azerbaijan stretches from the Caucasus mountains in the north to the Araxes river in the south, from the Caspian Sea in the east to the Nakhchivan region in the western end, totaling some 44,000 square miles.

All ethnic and religious groups, including Christians, Jews and Muslims, have sizable representation in its parliament. The country was recognized by other democratic nations, including the U.S., since restoration of its independence in October 1991.

Qeyd olunur ki, Azərbaycan Xalq Cümhuriyyəti müsəlman ölkələri arasında ilk dünyəvi parlament respublikası olub. Xristianlar, yəhudilər və müsəlmanlar da daxil olmaqla bütün etnik və dini qrupların parlamentdə böyük bir təmsilçiliyi olub. 1991-ci ilin oktyabrında müstəqilliyini bərpa etdikdən sonra bu ölkə ABŞ da daxil olmaqla digər demokratik ölkələr tərəfindən tanınıb. Azərbaycanın bu gün ABŞ və müttəfiqlərinin yaxın tərəfdaşı olduğu, ABŞ-ın və NATO-nun Əfqanıstandakı missiyası boyu Əfqanıstana stabil bağlantı üçün əsaslı rol oynadığı və terrorçuluq əleyhinə geniş müharibədə ABŞ-la tərəfdaşlıq etdiyi bildirilir. Məqalə ABŞ Azərbaycanlıları Şəbəkəsinin Amerika ictimaiyyətini məlumatlandırma kampaniyası çərçivəsində dərc edilib.

# Lavrov: “Status məsələsini qaldırmayın, sülh prosesi ilə məşğul olaq”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb*

***Son günlərdə regionumuzda, həmçinin Azərbaycan-Ermənistan sərhədində maraqlı proseslər və hadisələr baş verib. “Moskva-Bakı” portalında İnna Lisovskayanın təqdimatında yayımlanan verilişdə qeyd olunan məqamları oxucularımızın diqqətinə çatdırırıq.***

## Statusu qaldırmayın

ATƏT-in Minsk Qrupunun həmsədrləri bu dəqiqə Dağlıq Qarabağın statusu problemini qaldırmamalıdır. Rusiya xarici işlər naziri Sergey Lavrov belə dedi.

Sitat: “Başa düşürəm ki, indi çoxları Dağlıq Qarabağın statusunun həll olunmadığından, bunun nəhayət razılaşdırılması lazım olduğundan bəhs edir, lakin bu mərhələdə olan ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə, yəqin ki, status problemini qaldırmamalı, qarşılıqlı inam yaratma tədbirlərinə kömək etməli, humanitar məsələlərin həllini təşviq etməli, ermənilər və azərbaycanlıların təhlükəsizlikdə, iqtisadi çiçəklənmədə yenidən yan-yana yaşamağa başlamalarına kömək etməli və bundan sonra sizi inandırıram; bir-iki ildən sonra belə bir həyat qursaq, bütün problemlər daha asan həll ediləcək”

Lavrov qeyd etdi ki, indi İrəvan və Bakıdan eşidilən bəzi açıqlamalara diqqət yetirmək yox, insanların “yer üzündə” həyatlarının normallaşmasına diqqət yetirmək lazımdır.

Rusiya diplomatiyası başçısının dediyi kimi, “bu gün Azərbaycanla Ermənistan arasında heç bir böyük hadisə yoxdur, bu, ümumiyyətlə Bakıda və Yerevanda qəbul olunur. Fərdi kiçik hadisələr tez bir zamanda aradan qaldırılır. Bəli, Azərbaycan-Ermənistan sərhədinin müəyyən hissələrində gərginlik var, amma bunun Dağlıq Qarabağla heç bir əlaqəsi yoxdur”.

Nəqliyyat və iqtisadi əlaqələrin blokdan çıxarılmasına münasibət bildirən Sergey Lavrov, bu məsələnin “ATƏT-in Minsk qrupunun Rusiya, Fransa və ABŞ-ın təmsil etdiyi həmsədrləri vasitəsi ilə uzun illər əvvəl razılaşdırılmış əsas prinsiplərdən biri halına gəldiyini” qeyd etdi.

Rusiya Xarici İşlər Nazirliyinin başçısı vurğuladı ki, “peşəkar təlim keçmiş insanlar” nəqliyyat və iqtisadi əlaqələrin blokdan çıxarılması məsələsi üzərində işləyirlər, “bu blokdan çıxartmanın praktiki həyata keçirilməsi cəhətdən birinci olmalıdır”. Lavrov, tərəflərin blokdan çıxarılması məsələsində, əlbəttə ki, “qonşularının maraqlarını nəzərə aldıqlarına” da diqqət çəkdi.

Sitat: “Türkiyəyə və onun roluna gəldikdə, o zaman dediyim kimi, bu üçtərəfli müzakirələrdə Türkiyənin maraqları, İranın maraqları birmənalı olaraq nəzərə alınır, əks halda bütün bu blokdan çıxarma maksimum təsir göstərməyəcəkdir”.

Bundan əlavə, Lavrov türkiyəli həmkarlarının Qarabağdakı atəşkəs rejimi ilə əlaqədar rus mütəxəssisləri ilə birgə izləmə missiyasındakı rolunu faydalı, stabilləşdirici amil adlandırdı.

## Xəritələr təhvil verilməlidir

ABŞ Azərbaycanın azad edilmiş ərazilərinin minalardan təmizlənməsi üçün bütün minalanmış ərazilərin xəritələrinin verilməsini zəruri hesab edir. ABŞ Dövlət katibinin köməkçisi Filip Riker bunu dünən Bakıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşdən sonra bəyan edib. Beləliklə, Kəlbəcərdə mina partlaması nəticəsində 2 azərbaycanlı jurnalistin ölümü barədə danışan Riker bunun təkrarlanmamalı böyük bir faciə olduğunu vurğuladı. Onun sözlərinə görə, ABŞ minaların təmizlənməsi məsələsində texniki yardım göstərməyə hazırdır.

Azərbaycanla Ermənistan arasındakı vəziyyətdən danışan Riker, Ermənistan sərhədindəki son hadisələrdən narahatlığını və vəziyyətin daha da pisləşə biləcəyindən qorxduğunu dilə gətirərək tərəfləri ATƏT-in Minsk qrupunun sədrliyi ilə substantiv danışıqlara qayıtmağa çağırdı. Rikerin sözlərinə görə, Prezident Bayden və dövlət katibi Blinken, Vaşinqtonun Ermənistanla Azərbaycan arasındakı münaqişənin həlli axtarışında iştirak etmək niyyətində olduğunu və ABŞ-ın da bu səyləri ATƏT-in Minsk Qrupuna üzv ölkələr- Rusiya və Fransa ilə, həmçinin digər ölkələrlə birlikdə davam etdirmək niyyətində olduğunu açıqca bildirdilər.

Bundan əlavə, Riker ABŞ-ın Azərbaycan və Ermənistan arasındakı sərhədin müəyyənləşdirilməsi üçün texniki yardım göstərməyə hazır olduğunu bildirdi.

Sitat: “Sərhədin müəyyənləşdirilməsi çox vacibdir. Hər kəsə fayda gətirəcək. Bu prosesi başlamaq üçün siyasi iradə tələb olunur”

Bundan əlavə, ABŞ Dövlət katibinin köməkçisi Azərbaycanın ABŞ üçün strateji tərəfdaş olduğunu xatırladıb və Prezident Əliyevlə görüşündə Vaşinqtonun prioritet hesab etdiyi mövzuları müzakirə edib: enerji və iqtisadi əlaqələr, insan hüquqları və əsas azadlıqları bölgədə təhlükəsizlik. Xüsusilə, Riker Azərbaycan qazının Avropaya tədarükünü təmin edəcək və bununla da qitənin enerji təhlükəsizliyini artıracaq Trans-Adriatik Qaz Boru Kəmərinin tikintisinin başa çatdırılmasının vacibliyini vurğulayıb.



## Humanizm təzahürü

Azərbaycan iki ölkə arasındakı sərhəd ərazisində tutulan Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçusu Artur Kartanyanı Ermənistana təhvil verdi. Bunu Azərbaycan Respublikası Müdafiə Nazirliyi bəyan edib.

Sitat: “İstintaq göstərdi ki, Ermənistan Silahlı Qüvvələrinin hərbçisi Artur Kartanyan yolu itirib və səhvən Azərbaycanla sərhədi keçib. Kartanyanın dindirmə zamanı qarışıq cavabları və davranışı məhbusun təxribat qrupunda iştirakına dair şübhələr yaratmışdı. Bunu nəzərə alaraq erməni tərəfinə təhvil verildi”.

Azərbaycan Müdafiə Nazirliyi, saxlanılan şəxsin “Azərbaycan Respublikasına qarşı cinayətlər törətməməsi” səbəbi ilə Ermənistan ordusuna təhvil verilməsini “humanizmin təzahürü” adlandırdı.

Xatırladaq ki, Azərbaycan Müdafiə İdarəsi Ermənistanın silahlı qüvvələrinin kəşfiyyat və təxribat qrupunun əlverişsiz hava şəraitindən istifadə edərək, Ermənistan-Azərbaycan dövlət sərhədinin Laçın hissəsindəki Azərbaycan ərazisinə daxil olduğunu açıqlamışdı. Nəticədə qrup üzvü, hərbçi Artur Kartanyan nəzarətə alınmışdı. Qalan qrup geri çəkilib ərazini tərk edib. Daha sonra Ermənistan Müdafiə Nazirliyi hadisəni şərh edərək hərbçisinin səhvən Bakının nəzarət etdiyi ərazidə olduğunu, duman ucbatından yolu itirdiyini söylədi.

Ermənistan baş naziri vəzifəsini icra edən Nikol Paşinyan bəyan etdi ki, erməni hərbçi Armen Kartanyanın Azərbaycan tərəfindən qaytarılması Azərbaycan-Ermənistan sərhədindəki vəziyyətin gərginləşməsi üçün müsbət zəmin yaradır.

Əlavə edirik ki, Nikol Paşinyan müvafiq dövlət strukturlarına da oğlu Aşotun Azərbaycan tərəfində olan erməni diversantlarla dəyişdirilməsini təklif etməsini tapşırmışdı.

Qeyd edək ki, Paşinyanın bu sözləri keçmiş prezident Serj Sarkisyanın hökumət başçısının məhbusların bir-iki ay gözləyə biləcəyinə dair açıqlamasını tənqid etməsindən və oğlunu onlara dəyişdirməsini təklif etməsindən sonra səsləndi.

Analitiklər bütün bunları Ermənistanda erkən parlament seçkiləri ərəfəsində populizm hesab edirlər.

Bu arada, 20 iyunda Ermənistanda keçiriləcək erkən parlament seçkiləri ərəfəsində, iştirakçılar təhqir və kompromat sübutlarını davam etdirirlər. Buna görə bir gün əvvəl Paşinyan Sarkisyanı orduda silahlandırmaq üçün istifadə edilməsi lazım olan büdcə vəsaitlərini qumarxanada itirməkdə günahlandırdı. Buna cavab olaraq Sarkisyan hazırkı baş nazirin çox uzağa getdiyini və guya ona sübut təqdim etməsi üçün 24 saat vaxt verdiyini onun özü və ailəsi ilə bağlı faktları dərc edəcəyini, cəmiyyətin ona tüpürəcəyini söylədi.

Ultimatumun bitməsindən sonra Sarkisyan rəhbərlik etdiyi Respublika Partiyasına görə, Paşinyanın Qarabağ danışıqlar prosesini qəsdən pozduğu, müharibə törətdiyi və Rusiyanı 2016-cı ilin aprel eskalasiyasını ortaya çıxarmaqda günahlandırdığı bir lent yazısı yayımladı. Yazı özü hələ ictimai məkanda deyil.

Xatırladaq ki, Nikol Paşinyanla Serj Sarkisyan arasında şifahi atışma bir neçə gündür davam edir. Seçicilərlə görüşdə Sarkisyan müharibədə itki və əsgər ölümünə görə baş nazir səlahiyyətlərini icra edən şəxsin məsuliyyətindən danışaraq, onun yerində olsaydı özünü vuracağını söylədi. Buna cavab olaraq, Paşinyan seçicilərlə görüşdə, Sarkisyanın prezidentliyi dövründə hərbi büdcəni talan etdiyinə görə niyə hələ özünü güllələməməsi ilə eyni sual ilə rəqibinə müraciət etdi.

## İttihamı oxuyun

Bu gün Bakının Yasamal rayon məhkəməsində, 1-ci Qarabağ müharibəsi zamanı azərbaycanlı məhbuslara amansız işgəncə verməkdə günahlandırılan Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçuları Lüdviq Mkrtçyan və Alyoşa Xosrovyanın cinayət işi üzrə növbəti məhkəmə iclası keçirilib.

İclas zamanı ittiham aktı oxundu. Mkrtçyan və Xosrovyanın 2020-ci ilin oktyabrında dövlət sərhədini pozaraq döyüş əməliyyatları bölgələrinə gəldikləri qeyd edildi. İttiham aktına görə, Mkrtçyan Xocavənd, Xosrovyan isə Cəbrayıl rayonunda könüllü olaraq Azərbaycan ordusuna qarşı əməliyyatlara qatılıblar. Casusluq fəaliyyəti həyata keçirərək dövlət sirri təşkil edən məlumatları, o cümlədən qoşunların hərəkəti və hərəkəti barədə məlumatları Ermənistana ötürüblər.

Məhkəmə iclasında təqsirləndirilən şəxslərin və zərərçəkmişlərin ifadələri dinlənildi.

Məsələn, Mkrtçyan və Xosrovyanın əllərindəki qurbanlardan biri olan Kamil Babayev, bir ildən çox müddətdir həbsdə qaldığı ilk Qarabağ müharibəsi zamanı ağır işgəncələrə məruz qaldığını söylədi.

Sitat: “Mən Şuşada, sonra Xankəndidə əsir idim. Çox işgəncələrə məruz qaldıq. İndi mühakimə olunan şəxslər bizə qarşı pis rəftar etdilər. Vaxt gəldi, ədalət qalib gəldi, indi çirkli əməllərinə görə cəzalandırılacaqlar”

Digər bir zərərçəkən Cavid Hüseyn, məhbusların Şuşa həbsxanasının qarşısındakı ərazidən buzları təmizləməyə məcbur edildiklərini, daha sonra dəmir çubuqla döyülərək qarda basdırıldıqlarını söylədi.

Digər bir zərərçəkən Qərib Vəliyev, Mkrtçyanın ona necə ağır işgəncə verdiyini izah etdi.

Sitat: “1999-cu ildə Tapqaraqoyunlu kəndi istiqamətində mal-qara otararkən erməni hərbçiləri tərəfindən girov götürüldüm. Mkrtçyan sinəmdən təpiklədi və işgəncə verməyə başladı. Ofisdə üzümə vurdu sonra döydü. Dizimlə başımın üstünə bir çanta qoydu və yenidən işgəncə verməyə başladı, bir dəfə məni axşama kimi döydü, ən yaxın hərbi hissənin yerini öyrənməyə çalışdı, tələb etdi ki, kəşfiyyat məmuru olduğumu etiraf edim. Azərbaycan dilində təmiz danışır. İki ay ərzində mən əsirlikdə qaldım. Beynəlxalq Qızıl Xaç Komitəsi mənimlə bağlı vəziyyəti nəzarətə götürdükdən sonra işgəncələr dayandı. Geri qayıtdıqdan sonra bir ay müalicə aldım”.

Vəliyev, ilkin istintaq zamanı Mkrtçyanın onu tanıdığını da söylədi.

Növbəti məhkəmə iclası 16 iyun tarixində keçiriləcəkdir.

***Tərcümə - Elçin Bayramlı***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

11 iyun

# SƏS

QARABAĞ AZƏRBAYCANDIR!



# Bakıda “AVRO-2020” futbol həyəcanı başlayır!

Azərbaycanın inkişafın bütün istiqamətləri üzrə modelini ortaya qoyması danılmazdır. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm nailiyyətlər qazanan ölkəmizin beynəlxalq miqyaslı yarışlara, festivallara, qlobal forumlara, konfranslara ev sahibliyi etməsi ölkəmizin elmə, təhsilə, mədəniyyətə, idmana və digər sahələrə olan diqqəti ilə yanaşı, bu və ya digər sahələrdə qazanmış olduğu uğur və nailiyyətlərin təsdiqidir. Paytaxtımızda NATO Parlament Assambleyasının seminarı, ATƏT Parlament Assambleyasının illik sessiyası, IV Bakı Beynəlxalq Humanitar, Gənclər siyasəti üzrə I Qlobal forumu, Caz Festivalı, “Eurovision-2012” musiqi yarışması, “Bakı Elm Festivalı-2014”, BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu kimi mühüm əhəmiyyət kəsb edən müxtəlif məzmunlu tədbirləri təşkil olunmasında Azərbaycanın qazandığı mövqeyi, ölkəmizin beynəlxalq çəkisi, yüksək imici səbəb olmuşdur. Beynəlxalq tədbirlərin keçirilməsi mürəkkəb bir mexanizmə malik olduğundan təşkilatçılıq, təhlükəsizlik, iqtisadi imkanların mövcudluğu da həlledici rola malikdir ki, ölkəmizdə bütün bu və ya tədbirlərin yüksək səviyyədə təşkili öz həllini tapır. Bu günlərdə paytaxtımızda təşkil olunan “Formula 1” yarışları da uğurla başa çatdı. Ölkəmizdə keçirilən tədbirlər bir daha göstərir ki, Azərbaycan sürətlə inkişaf etməkdədir. Tədbirin təşkilatçıları olan tərəfdaşlar da beynəlxalq miqyaslı tədbirlərin keçirilməsi üçün ilk növbədə, sabitliyin, təhlükəsizliyin təmin olunduğu, inkişaf gedən ölkələrə etimad göstərirlər. Respublikamızda hökm sürən və ardıcıl səciyyə daşıyan sabitliyin əsasında duran başlıca faktor isə dövlət başçısının həyata keçirdiyi siyasi kursun ümummilli maraq və mənafeyə tam cavab verməsidir. Azərbaycanda son illər keçirilən beynəlxalq tədbirlər ölkəmiz haqqında təəssüratları genişləndirir, respublikamızın imicinə müsbət təsir göstərir.






**Azərbaycanın “AVRO-2020” oyunlarına ev sahibliyi etməsi dünyanın diqqətini yenidən paytaxtımıza yönəldir**

## “AVRO-2020” PANDEMİYA DÖVRÜNÜN TƏLƏBLƏRİNƏ UYĞUN OLARAQ KEÇİRİLƏCƏK



Azərbaycan bu gün daha bir beynəlxalq səviyyəli yarışa ev sahibliyi edəcək və bütün dünyanın nəzəri yenidən ölkəmizə cəm olacaq. Bu AVRO-2020 oyunlarıdır. Təbii ki, bu oyunlar pandemiya dövrünün tələblərinə uyğun olaraq keçiriləcək. Ümumdünya Səhiyyə Təşkilatının qərarı ilə 2020-ci il martın 12-də koronavirus epidemiyasının qlobal pandemiya elan olunması nəzərə alınaraq, UEFA İcraiyyə Komitəsinin 17 mart 2020-ci il tarixli iclasında AVRO-2020-nin daha əvvəl açıqlanmış tarixdən düz bir il sonra - 2021-ci il iyunun 11-dən iyulun 11-dək olan müddətdə keçirilməsi barədə qərar qəbul olunub. Pandemiya ilə əlaqədar AVRO-2020-nin oyunlarının keçiriləcəyi stadionlara azarkeşlərin hansı sayda və hansı prosedurlar əsasında buraxılacağı barədə qərar yerli hökumət və dövlət strukturları tərəfindən artıq qəbul edilib. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın və AVRO-2020-nin yerli təşkilat komitəsinin birgə iclasında UEFA-nın tövsiyələri və Bakı şəhərində pandemiya ilə bağlı mövcud vəziyyət nəzərə alınaraq Bakıda keçiriləcək 4 oyunun hər birində Bakı Olimpiya Stadionunun ümumi tamaşaçı tutumunun 50 faizi qədər azarkeşin COVİD-19-la bağlı müvafiq prosedurların yerinə yetirilməsi şərtilə iştirak edə biləcəyi barədə qərar qəbul olunub. Qərar yerli azarkeşlərlə yanaşı, oyunlarda iştirak edən milli komandaların mənsub olduğu ölkələrin vətəndaşlarına da şamil olunacaq.

Bildiyimiz kimi, cari ilin aprelin 13-də Prezident İlham Əliyev 2021-ci ildə futbol üzrə Avropa çempionatının 4 oyununun (üç qrup və bir 1/4 oyunu) Bakı şəhərində keçirilməsi ilə əlaqədar bəzi tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, oyunlarla əlaqədar ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər mayın 1-dən iyulun 5-dək Azərbaycanın dövlət sərhədindən buraxılış məntəqələrində viza ala bilərlər. Sənəddə qeyd olunur ki, Oyunların Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin və ya Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) rəsmi dəvət məktubu, Avropa Futbol Assosiasiyaları Birliyinin (UEFA) müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı və ya digər sənəd, Bakı şəhərində keçiriləcək oyunlarda iştirak edən futbol komandalarının təmsil etdikləri ölkələrin vətəndaşları və həmin ölkələrdə daimi yaşayan vətəndaşlığı olmayan şəxslər üçün oyuna bilet və ya biletin əldə olunmasını təsdiqləyən sənədlərdən biri viza verilməsi üçün əsas hesab edilir.

## BAKI OLİMPİYA STADİONU BEYNƏLXALQ STANDARTLARA TAM CAVAB VERƏN İDMAN OBYEKTİDİR

Bakının AVRO-2020-nin oyunlarına ev sahibliyi etməsi dünyanın diqqətini yenidən paytaxtımıza yönəldir. Beynəlxalq tədbirlərin təşkilinə məsuliyyətlə yanaşan Azərbaycan növbəti bir uğura da imza atır. Bakıda futbol həyəcanı yaşanacaq. Bu nüfuzlu tədbirin uğurla keçirilməsi Azərbaycanın böyük beynəlxalq tədbirləri, o cümlədən bütün dünyanın diqqət mərkəzində olan idman yarışlarını yüksək səviyyədə təşkil etmək bacarığını bir daha nümayiş etdirəcək.

Təbii ki, AVRO-2020-nin Azərbaycanda keçirilməsi ölkəmizin uğurudur. Bu, Azərbaycanın ildən-ilə artan nüfuzunun göstəricisidir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda idman sahələrinin, o cümlədən futbol infrastrukturunun yaradılması, yeni stadionların, xüsusilə Bakı Olimpiya Stadionunun tikintisi də daxil olmaqla həyata keçirilən ümumi sosial-iqtisadi siyasətin uğurudur. Mükəmməlliyi ilə diqqəti cəlb edən Bakı Olimpiya Stadionu beynəlxalq standartlara tam cavab verən idman obyektidir. Stadion müasirliyi, funksional baxımdan əlverişliliyi, paytaxtın memarlığına və irəli sürülən texniki şərtlərə maksimum uyğunluğu ilə seçilir. Bakı Olimpiya Stadionunda Avropa Çempionatının keçiriləcək oyunları da çox yüksək səviyyədə təşkil olunacaq.Avropanın, eləcə də dünyanın diqqəti yenidən Azərbaycanda - paytaxtda olacaq. Belə yarışların ölkəmizdə keçirilməsi həm də Odlar yurdunu dünya ölkələrinə bir daha tanıdır.Əlbəttə ki, beynəlxalq tədbirlərə ev sahibliyi etməkdə maraqlı olan Azərbaycan dövləti bu toplantıların yüksək səviyyədə keçirilməsinə böyük şərait yaradır.Azərbaycanın dövlət maraqlarına uyğun şəkildə həyata keçirilən bu tədbirlər ölkəmizin dünyadakı nüfuzunu günü-gündən daha da sarsılmaz edir.



***Nəzakət ƏLƏDDİNQIZI***

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
*“Azərbaycan” nəşriyyatında çap olunur*
*Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**